# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

13 DEKABR ŞƏNBƏ 2025 № 48 (4249) Qiymətі - 60 qəpik www.kaspi.az

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB







# MÜASİR AZƏRBAYCANIN BANİSİ

**Ulu Öndərin vəfatından 22 il ötsə də, onun müəllifi olduğu ideyalar Heydər Əliyev fenomeninin həm xalqımızın qəlbində, həm də dünya tarixində əbədiyaşarlığının təzahürdür. Ulu Öndərin zəngin irsi xalqımızın ən böyük mənəvi-siyasi sərvətlərindən biridir.**

## ULU ÖNDƏRİN TARİXİ XİLASKARLIQ MİSSİYASI

Ulu Öndər Heydər Əliyev Azərbaycana fərqli ictimai-siyasi formasiyalarda rəhbərlik etsə də, onun fəaliyyətinin mərkəzində hər zaman Azərbaycan xalqının maraqları dayanıb. Elə bu səbəbdəndir ki, hətta sovetlər dönəmində belə onun liderliyi ilə Azərbaycan milli məfkurəsinin öz tarixi kökləri üzərində formalaşmasında tamamilə yeni bir mərhələ başlanıb.

## SABİTLİK, TƏRƏQQİ, HEYRƏTAMİZ NAİLİYYƏTLƏR

Qayıdışının ilk günlərindən ölkədə sabitlik yaratmağı, milli birliyi təmin etməyi əsas prioritet kimi müəyyənləşdirən Ümummilli Liderin qətiyyəti sayəsində Azərbaycan vətəndaş müharibəsi, parçalanma təhlükəsindən qurtuldu, sabitlik bərqərar edildi, hüquqi dövlət və demokratik cəmiyyətin formalaşması üçün ardıcıl islahatlara start verildi.

SƏHİFƏ 4-də

## SLOVAKİYA İLƏ MÜNASİBƏTLƏR YENİ MƏRHƏLƏDƏ



Prezident İlham Əliyevin dekabrın 8-9-da Slovakiyaya reallaşan səfəri Bakı ilə Bratislavanın münasibətlərin bütün istiqamətlərini gücləndirəcəklərinə dair mesajlar verir. Atılan addımlar Azərbaycanın Avroatlantik məkandakı mövqeyini gücləndirə bilər.

SƏHİFƏ 3-də

## SÖZLƏRİ VƏ ƏMƏLLƏRİ BİR OLMAYANLAR



Dağlıq Qarabağ münaqişəsinin həllindən sonra regionda müsbət irəliləyişlər əldə edilib. Buna baxmayaraq, keçmiş münaqişənin elementlərinin yenidən gündəmə gətirilməsi bəzi qüvvələrin sülh sazişinin imzalanmasında maraqlı olmadığını bir daha ortaya qoyur.

SƏHİFƏ 6-da

## YAPONİYA İLƏ ÇİN ARASINDA GƏRGİNLİK PİK HƏDDƏ



Cənubi-Şərqi Asiyada gərginlik artmaqdadır. Tailandla Kamboca arasında yaşanan hərbi münaqişə, daimi Hindistan-Pakistan gərginliyi, Pakistan-Əfqanıstan sərhəd insidentləri deyilənlərin təsdiqidir. Ən ciddi problem isə Tayvan ətrafında yaşananlardır.

SƏHİFƏ 5-də



## Heydər Əliyevin xatirəsi yad edilib

İqtisadiyyat Nazirliyinin kollektivi Heydər Əliyevin anım günü ilə əlaqədar Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib. "Report" bu barədə nazirliyə istinadən xəbər verir.

Məlumata görə, Ulu Öndərin abidəsi önünə gül dəstələri qoyulub və xatirəsi ehtiramla anılıb.

Ümummilli Lider Heydər Əliyevin mütərəqqi dövlətçilik siyasəti Azərbaycanda əmin-amanlığın, sabit və dayanıqlı inkişafın, rifahın bünövrəsini təşkil edir. Ulu Öndərin müdrik ideyaları əsasında formalaşan iqtisadi inkişaf strategiyası ölkəmizin davamlı yüksəlişini və dayanıqlı artımı təmin edir.

Azərbaycanın dövlətçilik tarixində dərin iz qoymuş dünya şöhrətli siyasi xadim, Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi hər zaman böyük ehtiram, minnətdarlıq və sevgi ilə yad olunur.



## SOCAR kollektivindən Ulu Öndərə ehtiram

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf və şirkətin kollektivi Fəxri xiyabanda müasir Azərbaycan dövlətinin memarı, ölkəmizin yeni enerji strategiyasının müəllifi, Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib.

"Report" bu barədə SOCAR-a istinadən xəbər verir. Məlumata görə, dahi şəxsiyyətin əziz xatirəsi dərin hörmət və ehtiramla anılaraq məzarı önünə gül dəstələri qoyulub. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də yad edilib, məzarı üzərinə gül dəstələri düzülüb.



## Anım günündə ağacəkmə aksiyası keçirilib

Dekabrın 12-də Xocalı rayonunun Ballıca kəndində Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar ağacəkmə aksiyası keçirilib.

Bu barədə "Report"a Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, aksiya zamanı ərazidə badam, şam və digər müxtəlif növdə 220 ağac əkilib. Əkilən ağaclara ilkin qulluq göstərilib, suvarma işləri həyata keçirilib.

# DƏRİN MİNNƏTDARLIQLA ANILAN ÜMUMMİLLİ LİDER

**Azərbaycanın dövlətçilik tarixində Ümummilli Lider Heydər Əliyevin xidmətləri bütöv bir epoxanı özündə ehtiva edir. Onun dahiyanə siyasi uzaqgörənliyi, müstəqil Azərbaycanın inkişaf strategiyasının əsasını təşkil edən qərarları xalqımızın yaddaşında silinməz iz buraxıb.**



Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 22 il ötür. Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Dövlət başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla anıblar, məzarı üzərinə gül dəstələri qoyublar.Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

### XİLASKARLIQ MİSSİYASI

Azərbaycanın dövlətçilik tarixində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xidmətləri bütöv bir epoxanı özündə ehtiva edir. Onun dahiyanə siyasi uzaqgörənliyi, dövlət quruculuğu sahəsində atdığı addımlar, müstəqil Azərbaycanın inkişaf strategiyasının əsasını təşkil edən qərarları xalqımızın yaddaşında silinməz iz buraxıb. Ulu Öndərin hakimiyyəti illərində ölkəmizin sabitliyə qovuşması, iqtisadiyyatın dirçəldilməsi, ordu quruculuğunun möhkəmləndirilməsi Azərbaycanın gələcək yüksəlişini təmin edən əsas dayaqlara çevrildi.

Xalqımız ağır və taleyüklü dönəmlərdə Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyasını dərin minnətdarlıqla xatırlayır. Məhz onun rəhbərliyi illərində Azərbaycan qarşılaşdığı təhlükələrdən xilas oldu, milli özünüdərk gücləndi, müstəqilliyimizin əbədiliyi üçün möhkəm təməllər qoyuldu. Hər il dekabrın 12-də və mayın 10-da minlərlə insanın Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət etməsi xalqın dahi övladının xatirəsinə əbədi ehtiramının və sədaqətinin bariz ifadəsidir.



### ULU ÖNDƏRİN ƏN BÖYÜK ARZULARINDAN BİRİ

Ulu Öndər Heydər Əliyevin ən böyük arzularından biri Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Qarabağın azad edilməsi idi. Onun bu arzusu illər sonra öz layiqli davamçısı tərəfindən həyata keçirildi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyi və əzmkarlığı nəticəsində Ordumuz tarixi Zəfər qazandı, ölkəmizin ərazi bütövlüyü, suverenliyi bərpa olundu, üçrəngli Bayrağımız işğaldan azad edilmiş şəhər və kəndlərimizdə ucaldıldı.

Bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycanın gücünü, həmçinin gələcəyə olan inamını əks etdirir. Azad olunan torpaqlarda yeni həyatın başlanması Ümummilli Lider Heydər Əliyevin dövlətçilik ideyalarının davamlılığının və uğurla həyata keçirilməsinin göstəricisidir.

### HEYDƏR ƏLİYEVİN MÜƏYYƏNLƏŞDİRDİYİ İNKİŞAF



Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf yolu bu gün də ölkəmizin siyasi və iqtisadi tərəqqisinin əsasını təşkil edir. Prezident İlham Əliyevin apardığı siyasət Azərbaycanın beynəlxalq arenada nüfuzunu artırıb, ölkəmizi bölgədə mühüm tərəfdaş və güclü dövlətə çevirib. Dövlətimizin milli maraqlarının qətiyyətlə müdafiə olunması, təhlükəsizlik və inkişaf strategiyasının ardıcıl şəkildə davam etdirilməsi dahi Heydər Əliyev ideyalarının yaşayaraq inkişaf etdiyini göstərir.

Qəti şəkildə demək olar ki, Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevin ideyalarına daim sadiq olacaq, onun müəyyənləşdirdiyi inkişaf yolu ölkəmizi daha böyük uğurlara doğru aparmaqda davam edəcək.

# SLOVAKİYA İLƏ MÜNASİBƏTLƏR YENİ MƏRHƏLƏDƏ

Prezident İlham Əliyevin Slovakiyaya səfəri Bakı ilə Bratislavanın münasibətlərin bütün istiqamətlərini gücləndirəcəklərinə dair mesajlar verir. Atılan addımlar Azərbaycanın Avroatlantik məkandakı mövqeyini gücləndirə bilər.



AQŞİN KƏRİMOV

Bu həftə Azərbaycanın xarici siyasət gündəmi Prezident İlham Əliyevin Slovakiya Respublikasına rəsmi səfəri ilə yadda qaldı.

Dekabrın 8-də Paytaxt Bratislavada İlham Əliyevin Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə təkbətək və geniş tərkibdə görüşləri olub. Daha sonra prezidentlərin mətbuata birgə bəyanatı səsləndirilib.

Dekabrın 9-da isə Bratislavada Prezident İlham Əliyevin Slovakiya Respublikasının Milli Şurasının sədri Rixard Raşi və Baş nazir Robert Fitso ilə görüşü keçirilib.

### İKİ DÖVLƏT MARAQLARINI UZLAŞDIRIR

Azərbaycanın xarici siyasəti həm müttəfiqlərə, həm də yeni tərəfdaşlara yanaşmaları uzlaşdırmağa hesablanıb. Bu cür xarici siyasət kursu, NATO blokuna üzv olmasına baxmayaraq, Slovakiyanın da konsepsiyasında mövcuddur. Bu bənzərliklərdən yola çıxaraq Azərbaycanla Slovakiya bir-birilərinin maraq və təhlükəsizliklə bağlı səylərini qarşılıqlı dəstəkləməyə fəal şəkildə ehtiyac hiss edirlər. İlham Əliyevin səfəri bu dəstək mexanizmlərinin gücləndirilməsi, yeni əməkdaşlıq modelinə keçidi, bununla da tərəfdaşlıqda növbəti mərhələni əks etdirir. Bu amil Azərbaycanla Slovakiyanı əməkdaşlıqda yeni istiqamətə sövq və təşviq edərək dəyişən dünya nizamına çevik reaksiyanı formalaşdırır. Bunun üçün Azərbaycanla Slovakiya arasında dərinləşmiş əlaqələr və bunun məntiqi davamı olan strateji tərəfdaşlığın qurulması vacib xətt kimi önə çıxır. Əlaqələr çoxvektorlu istiqamətləri əhatə edən xarakterlə daha da möhkəmlənə bilər. Buna görədir ki, Prezident İlham Əliyev və həmkarı mətbuata bəyanat zamanı münasibətlərdəki yeni istiqamətlər barədə konturları qeyd etdilər.

## Müdafiə sənayesi, müasir texnologiyalar...

Prezident Peter Pelleqrini bildirib ki, Azərbaycanla Slovakiya strateji tərəfdaşlıq qurmaq və onu inkişaf etdirmək niyyətindədir: "Ötən il iki ölkə arasında Strateji Tərəfdaşlıq haqqında Bəyannamə imzalanmışdır və bu da bizim münasibətlərimizi daha yüksək səviyyəyə qaldırmışdır. Bizim qarşılıqlı maraq kəsb edən bütün sahələr üzrə əməkdaşlığımız yüksək səviyyəyə qaldırıla bilər. Biz gələcəkdə Slovakiya ilə Azərbaycan arasında daha sıx əməkdaşlıq edəcəyik - müdafiə sənayesi, müasir texnologiyalar, tələbə mübadiləsi, turizm, mədəniyyət və digər sahələrdə".



2024-cü ildə ilk dəfə olaraq Azərbaycan qazının Slovakiyanın enerji bazarlarına təchiz edilməsini bildirən Prezident İlham Əliyev prosesin daha da irəliyə aparılması imkanlarının olduğunu da bildirib. O, enerji resurslarının ixracı sahəsindəki əməkdaşlığın yeni məcraya, o cümlədən müdafiə sənayesi sahəsində maraqların prioritetləşdirilməsinə istiqamət açdığına işarə edib.

Ümumiyyətlə, hər iki liderin açıqlamalarında silah ixracı, müdafiə sənayesi sahəsində əməkdaşlıq və birgə müəssisənin yaradılması ön planda tutulub.

### SİLAHLAR – SÜLHÜN QARANTI KİMİ

Azərbaycanın Slovakiyada enerji təchizatının şaxələndirilməsi prosesində aparıcı rol oynaya biləcəyini deyən Peter Pelleqrini müdafiə sənayesindəki əməkdaşlığa da toxunub. Onun ümumi fikri belə olub ki, Slovakiyanın Azərbaycanla müdafiə sənayesi sahəsindəki əməkdaşlığı təkcə silah satışı ilə məhdudlaşmayacaq. "Biz özüyeriyən artilleriya qurğuları, sursat və digər məhsullar sahəsində də böyük təcrübəyə malikik. Biz Azərbaycanla texnologiya ötürülməsi, Azərbaycanın maliyyəsindən istifadə edilməsi və birgə istehsalın üzərində işləyə və birlikdə istehsal etdiyimiz məhsulları üçüncü ölkələrə sata bilərik", - deyə o əlavə edib.

Prezident İlham Əliyevin bəyanatını isə daha geniş kontekstdə oxumaq mümkündür: "Biz müharibə aparmaq fikrində deyilik. Yəni, bizim üçün müharibələr artıq keçmişdə qalır və sadəcə olaraq, burada bir sinergiyanın yaradılması üçün Slovakiya texnologiyaları ilə Azərbaycan maliyyə imkanlarını birləşdirərək yeni məhsulların istehsalı dünya bazarları üçün də maraqlı ola bilər. Həm də ki, bu, texnoloji inkişafın da bir qolu olaraq bizə böyük faydalar verəcəkdir. Biz bu istiqamətdə konkret layihələr üzərində çalışırıq".

Bu bəyanat rəsmi Bakının sülh, təhlükəsizlik gündəmini əhatə edən prinsiplərə sadiqliyini göstərir. Başqa yandan, İlham Əliyev Avropanın təhlükəsizlik arxitekturasının Cənubi Qafqazdakı proseslərdən asılı olduğunu diplomatik şəkildə dilə gətirərək Azərbaycanın Avroatlantik məkandakı rolunu göstərir.

## Səfərin nəticə və perspektivləri



Bu səfər Azərbaycanla Slovakiyanın münasibətlərin bütün istiqamətlərini gücləndirəcəyinə dair siqnallar verir. Bu, perspektivdə iki dövlətin tərəfdaşlıqdan müttəfiqliyə doğru keçidini sürətləndirəcəyi haqqında təəssüratlar yaradır. Hər iki prezidentin güclü əlaqələr qurulması üçün iradə nümayiş etdirməsi Azərbaycanın Avroatlantik məkandakı mövqeyinin irəliyə aparılmasına şərait yarada bilər. Bu, Rusiya-Ukrayna müharibəsi və onun nəticələri fonunda Azərbaycanın geosiyasi əhəmiyyətinə və aktorluq qabiliyyətinə işarə olaraq da əhəmiyyətlidir.

# MÜASİR AZƏRBAYCANIN BANİSİ



**Ulu Öndərin vəfatından 22 il ötsə də, onun müəllifi olduğu ideyalar Heydər Əliyev fenomeninin həm xalqımızın qəlbində, həm də dünya tarixində əbədiyaşarlığının təzahürdür. Ulu Öndərin zəngin irsi xalqımızın ən böyük mənəvi-siyasi sərvətlərindən biridir.**

RASİM MƏZAHİROĞLU

Azərbaycanın ən yeni tarixi taleyüklü proseslərlə, enişli-yoxuşlu yollarla, çoxsaylı nailiyyətlərlə, inkişafın özünəməxsus modelinin formalaşması ilə xarakterizə olunur. Bütün bunların mərkəzində isə Ulu Öndər Heydər Əliyev, onun müstəsna xidmətləri dayanır. Məhz Ümummilli Liderin siyasi irsi, dövlətçilik fəlsəfəsi və milli maraqlara söykənən fəaliyyəti sayəsində Azərbaycan həm çətin sınaqlardan uğurla keçməyi bacardı, həm də böyük müvəffəqiyyətlərin müəllifinə çevrildi.

Ulu Öndər Azərbaycana fərqli ictimai-siyasi formasiyalarda rəhbərlik etsə də, onun fəaliyyətinin mərkəzində hər zaman Azərbaycan xalqının və dövlətinin intibahı, layiq olduğu qiymәti alması dayanıb. Elə bu səbəbdəndir ki, hətta sovetlər dönəmində belə Heydər Əliyevin liderliyi ilə Azərbaycan cəmiyyətinin tərəqqisində, milli məfkurəsinin öz tarixi kökləri üzərində formalaşmasında tamamilə yeni bir mərhələ başlanıb. Qeyd edilən kontekstdə ötən əsrin 70-80-ci illərində Azərbaycan keçmiş SSRİ-də ən qabaqcıl ölkələrdən birinə, aqrar təsərrüfat ölkəsindən nəhəng sənaye mərkəzinə çevrildi. Bu dövrdə Ümummilli Liderin ən böyük xidmətlərindən biri xalqımızın milli özünüdərk prosesi, azad, müstəqil dövlət qurmaq niyyətinin formalaşması istiqamətində məqsədyönlü fəaliyyəti oldu. Məhz bu fəaliyyət sovet ideologiyasının milli kimliyə mənfi təsirlərini uğurla sovuşdurdu. Bütün bunların bəhrəsini Azərbaycan 1990-cı illərin əvvəlində gördü, müstəqilliyini bərpa edərək, imperiya əsarətinə son qoydu.

### DÖVLƏTÇİLİK XİLAS EDİLDİ

Heydər Əliyevin SSRİ rəhbərliyindən kənarlaşmasından sonra cəsarətlənən və Qarabağa iddialarını gündəmə gətirən ermənilərin Azərbaycan ərazilərini işğal etməsi vəziyyəti daha da ağırlaşdırırdı. Müstəqilliyin havasını yenicə ciyərlərinə çəkən xalqımız bu əvəzsiz neməti itirmək təhlükəsini yaşayırdı. Belə çətin, mürəkkəb durumda xalq nicat yolunu Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasında, onun öncüllüyü ilə düşdüyü bəlalardan xilasda gördü. Xalqın çağırışına səs verən Ulu Öndər Naxçıvandan Bakıya gələrək xilaskarlıq missiyasına başladı. Məhz onun liderliyi ilə Azərbaycan real müstəqilliyinə qovuşdu, dövlətçilik xilas edildi.

### SABİTLİK, TƏRƏQQİ, HEYRƏTAMİZ NAİLİYYƏTLƏR

Qayıdışının ilk günlərindən ölkədə sabitlik yaratmağı, milli birliyi təmin etməyi əsas prioritet kimi müəyyənləşdirən Ümummilli Liderin qətiyyəti sayəsində Azərbaycan vətəndaş müharibəsi, parçalanma təhlükəsindən qurtuldu. Onun rəhbərliyi ilə qəbul edilmiş Konstitusiya dövlət idarəçiliyinin modern əsaslarını yaratdı. Demokratik tələblər çərçivəsində idarəetmə mexanizmləri quruldu, müvafiq institutlar, dövlətçiliyin ideoloji bazası - azərbaycançılıq məfkurəsi formalaşdırıldı.



Ulu Öndər ölkənin gələcəyini enerji strategiyası üzərində qurdu. 1994-cü ildə imzalanmış “Əsrin müqaviləsi” Azərbaycanın təkcə iqtisadi taleyini dəyişmədi, ölkənin sarsılmaz inkişaf dayaqlarının əsaslarını yaratdı, dünyanın demək olar ki, bütün aparıcı dövlətlərinin diqqətini Azərbaycan üzərində cəmləşdirdi. Məhz sözügedən müqavilə sayəsində Azərbaycanın beynəlxalq iqtisadi inteqrasiyasına, ölkəyə xarici sərmayələrin cəlbinə və dövlətin maliyyə dayanıqlığının təmin edilməsinə möhkəm zəmin formalaşdı. Ulu Öndərin həyata keçirdiyi balanslaşdırılmış və çoxşaxəli xarici siyasət ölkəni xarici təsir və təzyiqlərdən xilas etdi, Azərbaycan beynəlxalq münasibətlər sisteminə müstəqil və nüfuzlu aktor kimi daxil oldu.

Bütün bunlar Qarabağ münaqişəsi ilə bağlı vəziyyətin də Azərbaycanın lehinə dəyişməsini şərtləndirdi. Ermənistanın həm döyüş, həm də diplomatiya müstəvisində məğlubiyyətlər seriyası başladı, diaspor və lobbi qüvvələri, hamiləri də ağır zərbələr aldılar.

## HEYDƏR ƏLİYEVİN İDEYALARI

Bu gün də Azərbaycanın əldə etdiyi nailiyyətlər məhz Ulu Öndərin miras qoyduğu möhkəm təməllər üzərində yüksəlir. Ölkədə davam edən siyasi sabitlik, iqtisadi inkişaf, güclü ordu, beynəlxalq aləmdə artan nüfuz, strateji layihələrin uğurla həyata keçirilməsi onun müəyyən etdiyi inkişaf modelinin nəticəsidir. Bu modeli müasir dövrün tələblərinə uyğun olan yeni çalarlarla daha da zənginləşdirən, Heydər Əliyev yolunu layiqincə davam etdirən Prezident İlham Əliyev Ulu Öndərin ideyalarına söykənərək, Azərbaycanın adını daha uca zirvələrə həkk etdirir. Məhz Heydər Əliyev yoluna sadiqlik 44 günlük Vətən müharibəsində şanlı Zəfərin əldə olunmasının, 2023-cü ildə bütün ərazilərimiz üzərində suverenliyin təmin edilməsinin təməl daşıdır.

İşğaldan azad edilən ərazilərin xarabalıqdan çiçəklənən məkana çevrilməsinin, Böyük Qayıdış prosesin uğurla reallaşmasının əsasında da yenə Heydər Əliyev ideyaları dayanır. Ulu Öndərin vəfatından 22 il ötsə də, onun müəllifi olduğu ideyalar Heydər Əliyev fenomeninin həm xalqımızın qəlbində, həm də dünya tarixində əbədiyaşarlığının təzahürdür. Ulu Öndərin zəngin irsi xalqımızın ən böyük mənəvi-siyasi sərvətlərindən biridir. Azərbaycan bundan sonra da Ulu Öndərin müəyyən etdiyi strateji xətt, onun ideyaları üzərində qurulan milli dövlətçilik, inkişaf konsepsiyası əsasında əldə etdiyi nailiyyətlərlə cahan tarixinin ən qüdrətli ölkələrindən biri ünvanını daşımaqda davam edəcək.

# YAPONİYA-ÇİN GƏRGİNLİYİ PİK HƏDDƏ

Tayvan məsələsi Çin və Yaponiyanı yenidən üz-üzə qoyub. İki ölkə tarixində ilk dəfə hərbi qırıcılarla bağlı olay yaşanıb. Ekspertlər bu hadisəni "çox təhlükəli" kimi qiymətləndirirlər.



AZƏR NURİYEV



Cənubi-Şərqi Asiyada gərginlik artmaqdadır. Tailandla Kamboca arasında yaşanan hərbi münaqişə, daimi Hindistan-Pakistan gərginliyi, Pakistan-Əfqanıstan sərhəd insidentləri deyilənlərin təsdiqidir. Ən ciddi problem isə Tayvan ətrafında yaşananlardır. Belə bir durumda Çinlə Yaponiya arasında qarşılıqlı hədələr durmadan artır. Tərəflər arasında bir neçə ay əvvəl yaşanan diplomatik gərginlik indi yenidən qızışıb. İki ölkə arasında gərginlik hər an müharibəyə səbəb ola bilər.

### İKİ ASİYA ÖLKƏSİ ARASINDA QARŞILIQLI İTTİHAMLAR

Artıq Çinin Xarici İşlər Nazirliyi məlumat yayıb ki, Yaponiya silahlı qüvvələri müntəzəm şəkildə rəsmi Pekinin təhlükəsizliyini təhdid edən addımlar atır. Məlumatda deyilir ki, Tokio Çinin ünvanına məsuliyyətsiz ittihamlar yağdırmaqla faktları təhrif etməyə çalışır. "Faktlar isə açıq-aşkar ortadadır: tez-tez qeydə alınan kəşfiyyat uçuşları və Çinin müntəzəm hərbi əməliyyatlarının keçirildiyi yerlərə yaxınlaşan Yaponiya qırıcılarının müdaxiləsi ölkəmizin suda və quruda təhlükəsizliyinə ciddi təhdiddir", - deyə Çin xarici siyasət idarəsinin bəyanatında bildirilib.

Öz növbəsində Yaponiyanın Baş naziri Sanae Takaiçi Çini onlara məxsus qırıcı təyyarələri hədəfə almaqda ittiham edib. Məlumata görə, Çin hərbi təyyarəsi Okinava adası yaxınlığında yapon təyyarələrinə radar tuşlayıb. Burada ABŞ hərbi dəniz qüvvələrinin bazaları yerləşir. Tokionun bildirdiyinə görə, Çinin "J-15" qırıcı təyyarəsi "Lyaonin" aviadaşıyıcısından gündüz və axşam qalxıb. Yaponiya öz "F-15" qırıcı təyyarələrini havaya qaldırıb. Çin qırıcı təyyarəsi gündüz fasilələrlə yapon təyyarələrini 3 dəqiqə, axşam isə 30 dəqiqə hədəfdə saxlayıb. Yaponiyanın müdafiə naziri Şindziro Koidzumi çinli pilotların hərəkətlərini təhlükəli adlandırıb: çinlilər uçuş təhlükəsizliyini təmin etmək üçün lazım olan vaxt limitini keçiblər.

"AP" agentliyi yazır ki, bu insident iki dövlət arasında münasibətlərin pisləşməsinin nəticəsidir. Pisləşməyə səbəb isə Yaponiya Baş naziri Sanae Takaiçinin noyabrda Çin Tayvana hücum edərsə, Yaponiyanın ikinciyə kömək üçün silahlı qüvvələr göndərə biləcəyini bəyan etməsi olub.

## YAPONİYA ABŞ-DƏN DƏSTƏK İSTƏYİB

Yaponiya Çinlə yaranmış gərginlik fonunda ABŞ-dən açıq dəstək istəyib. "Financial Times" qəzeti mənbələrə istinadən yazıb ki, Yaponiyanın ABŞ-dəki səfiri Siqeo Yamada Donald Tramp administrasiyasından Tokioya açıq dəstəyin gücləndirilməsini xahiş edib. Göründüyü kimi, problem həqiqətən də ciddidir və gərginlik hər an müharibəyə çevrilə bilər. Radar insidenti Yaponiya və Çin aviasiyası tarixində ilk dəfə baş verib, lakin qoşun növlərinin digər sahələrində bənzər hadisələr olub. 2013-cü ildə Çin hərbi gəmisi yapon gəmisinə radar tuşlayıb.

### YAPONİYA 14 MİLYARD DOLLAR İTİRƏ BİLƏR

"The New York Times" yazır ki, Çinlə Yaponiya arasındakı bu mübahisə bütün regionu təhlükəli həddə gətirib çıxarıb. Çin mübahisəli adalar yaxınlığında patrul xidmətini gücləndirərək Yaponiyanın "düşmən addımına qətiyyətlə cavab verəcəyini" vəd edib. Tokiodakı Keio Universitetinin professoru Ken Cimbo deyir ki, Pekin regiondakıları öz hərbi donanmasının yapon adaları yaxınlığında daimi manevrlərinə alışdırmaq istəyir: "Bu, ABŞ, Yaponiya və onların tərəfdaşlarına Tayvan ətrafında mümkün münaqişəyə güc vasitəsilə müdaxilə etmək cəhdlərinə qarşı xəbərdarlıq kimi qiymətləndirilməlidir".

Bütün bunların fonunda Çin vətəndaşlarına Yaponiyaya getməkdən çəkinməyə çağırış edib. Yaponiyanın aparıcı iqtisadi tədqiqat mərkəzinin hesablamalarına görə, çinli turistlərin kəskin azalması ölkənin turizm gəlirlərini ildə 2,2 trilyon yen (14 milyard dollar) azalda bilər. Bu proqnoz dərhal Yaponiyanın pərakəndə satış və nəqliyyat səhmlərinin sabitliyinə təsir göstərib. Məsələn, dünyaca məşhur kosmetika şirkəti "Shiseido"nun səhmlərinin qiyməti 11% ucuzlaşıb - bu, aprel ayından bəri ən pis göstəricidir.



Ken Cimbo



Siqeo Yamada



Sanae Takaiçi

## İKİ ÖLKƏ ARASINDA GƏRGİNLİYİN TARİXİ KÖKLƏRİ

Qeyd edək ki, Çin və Yaponiya arasındakı münaqişənin əsrlər boyu davam edən kökləri var. Yaponiya 1895-ci ildən 1945-ci ilə - İkinci Dünya Müharibəsinin sonuna qədər Tayvanı idarə edib. 1972-ci ildə tərəflər birgə kommunike imzalayıb. Bu kommunikedə Tokio rəsmi olaraq "vahid Çin" siyasətini dəstəkləyib və Tayvanı Çin Xalq Respublikasının bir hissəsi kimi tanıyıb. Buna baxmayaraq Yaponiya Tayvanı regiondakı əsas strateji tərəfdaşı hesab edir. Yaponiya hakimiyyəti həmişə Çin və Tayvan arasında potensial gərginləşməni öz təhlükəsizliyinə ən böyük təhdidlərdən biri kimi görüb, lakin bu günə qədər bu mövzudakı açıqlamalarında çox ehtiyatlı olub. Sanae Takaiçi tərəfindən istifadə edilən "potensial təhdid" ifadəsi 2015-ci ildən bəri Yaponiyanın milli təhlükəsizlik konsepsiyasında təsbit edilib. Qeyd edilib ki, ehtiyac yaranarsa, Yaponiyanın Özünümüdafiə Qüvvələri təhdidə cavab vermək üçün yerləşdirilə bilər.

Yeri gəlmişkən, Yaponiya Vaşinqtonun ciddi dəstəyinə malikdir. Artıq ABŞ-nin Yaponiyadakı səfiri Corc Qlass Pekinin hədələrini hədsiz adlandırıb və ABŞ-nin Tokionun yanında möhkəm dayandığını bildirib. Yaponiyanın yüksək vəzifəli siyasətçiləri və rəsmiləri vəziyyəti sakitləşdirməyə çalışırlar. Xüsusilə, hakim Liberal Demokrat Partiyası koalisiyasına rəhbərlik edən siyasi komitənin rəhbəri Takayuki Kobayaşi hər iki tərəfi rasionallığı və sakitliyi qorumağa çağırıb.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# SÖZLƏRİ VƏ ƏMƏLLƏRİ BİR DEYİL

Postmünaqişə dövründə əldə edilmiş müsbət irəliləyişlər fonunda keçmiş münaqişənin elementlərinin yenidən gündəmə gətirilməsi bəzi qüvvələrin sülh sazişinin imzalanmasında maraqlı olmadığını bir daha ortaya qoyur.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə Azərbaycan və Ermənistan arasında Vaşinqtonda əldə edilmiş tarixi razılaşmalar sülh prosesi istiqamətində ciddi irəliləyişlərlə müşahidə olunur. Lakin ikitərəfli danışıqlar formatı çərçivəsində tərəflərin ortaya qoyduğu ortaq mövqenin Cənubi Qafqazda münaqişə və qarşıdurma səhifəsini çevirməyə doğru istiqamətləndiyini görən bəzi qüvvələr sülh prosesi yenidən çıxmaza sürükləməyə cəhd edirlər.

Sözdə Vaşinqton prosesinə ciddi dəstəyini ifadə edən Avropa İttifaqının (Aİ) atdığı addımlar səsləndirilən bəyanatlarla tamamilə ziddiyyətlidir. Belə ki, dekabrın 2-də Aİ və Ermənistan arasında Brüsseldə keçirilən Tərəfdaşlıq Şurasının VI iclasının nəticəsində imzalanmış "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı sənəd bir sıra Qərb dövlətlərinin əsl niyyətinin nə olduğunu açıq şəkildə göstərir. Təbii ki, Azərbaycanla münasibətlərdə mövcud reallıqları və Bakının maraqlarını nəzərə almağa məcbur olan Aİ ümumilikdə Cənubi Qafqaz strategiyasında ən zəif halqa kimi Ermənistanı görür. Bu səbəbdən bölgədə sülhə əngəl olmaq məqsədində əsas "vasitəçi" rolunda İrəvan çıxış edir.

Bu iddianı təsdiq edən ən mühüm amil sözügedən sənəddə postmünaqişə dövrünün reallıqlarını təhrif edən və sülh gündəliyinə zidd məqamları prioritetləşdirən qeydlərin yer almasıdır. Aİ və Ermənistanın məlum yanaşmasına rəsmi Bakının kəskin etirazı da özünü çox gözlətməyib. Xarici İşlər Nazirliyinin bəyanatında məlum müddəalar sülhə ciddi zərbə kimi dəyərləndirilərək Azərbaycan-Avropa İttifaqı münasibətlərinin perspektivlərinə mənfi təsir etdiyi xüsusi qeyd olunub.

### SÜLHƏ ƏNGƏL YARADAN QEYDLƏR

Azərbaycanın ciddi etirazına səbəb olan bu müddəalar hansılardır? Aİ-nin Vaşinqton razılaşmalarına qarşı qərəzi elə sənədin giriş hissəsində özünü açıq büruzə verir. 44 günlük müharibədən sonra Azərbaycanın reinteqrasiya təkliflərini geri çevirən və öz istəkləri ilə suveren ərazilərimizi tərk edən sakinlərin "Azərbaycanın hərbi əməliyyatlarından sonra köçkün düşmüş Qarabağ erməniləri" kimi təsnifləndirilməsi, onların "qaçqın" statusunda dəyərləndirilməsi, həmçinin növbəti yeddi il ərzində bu məsələnin Aİ-İrəvan münasibətlərində prioritet təşkil edəcəyinin vurğulanmasının özü əslində hər şeyi deyir. Halbuki, Baş nazir Nikol Paşinyanın timsalında Ermənistan dəfələrlə bu məsələnin gündəmdə olmadığını, onun süni şəkildə ortaya atılmasının sülh prosesinə ciddi zərər verəcəyini özü bəyan edib. İndi nədənsə İrəvan rəhbərliyi yenidən hansısa vədlərin fonunda əvvəlki mövqeyindən geri çəkilmək cəhdlərini ortaya qoyur.





## AZƏRBAYCAN İDDİA HÜQUQUNU ÖZÜNDƏ SAXLAYIR

Sülhə əngəl sayılan digər bir məqam sənəddə Beynəlxalq Ədalət Məhkəməsinin bütün müvafiq qərarlarının tam, dərhal və effektiv həyata keçirilməsinin dəstəklənməsinin xüsusi vurğulanmasıdır. Halbuki, Vaşinqton razılaşmalarına əsasən, tərəflər bir-birilərinə qarşı məhkəmə iddiaları irəli sürməyəcəyinə dair öhdəlik götürüblər. Məlum qərarların isə erməni lobbisinin təsiri altında birtərəfli qaydada Azərbaycana qarşı qəbul edildiyi ortadadır. XİN-in bəyanatında da qeyd edildiyi kimi, Azərbaycanla Ermənistana birbaşa aid olan və sırf ikitərəfli xarakter daşıyan bir məsələnin üçüncü tərəflə gündəmə gətirilməsi tamamilə məntiqsiz olmaqla yanaşı, belə bir yanaşma Azərbaycanın da Ermənistan əleyhinə öz legitim məhkəmə iddialarının mövcudluğunu nəzərə almır.

### KİMLƏR NARAHATDIR?

Bu gün Azərbaycan ədalət divanında mühakimə olunan və insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlərdə ittiham edilən və məhkum edilmiş ermənisilli şəxslərin "əsir" statusunda qeyd edilməsi və onların azadlığa buraxılmasının ayrıca prioritet kimi müəyyən edilməsi də ikili standartların və sülh prosesini pozmaq cəhdlərinin əyani sübutudur. İllərlə bu şəxslərin Azərbaycan əleyhinə törətdikləri cinayətləri görməzdən gələn, onlar vasitəsi ilə vaxtilə işğal edilmiş ərazilərimizdə qanunsuz fəaliyyətlərlə milyonlar qazanan qüvvələr indi onların məhkəmədə hüquq və qanunlar çərçivəsində mühakimə olunmalarından ciddi narahatlıq keçirirlər. Bu narahatlığın hansı səbəblərdən qaynaqlandığı isə ayrı bir mövzudur.

### Aİ TRIPP-Ə QARŞI

Həmçinin, Aİ-Ermənistan birgə sənədində kommunikasiyaların açılması ilə bağlı Vaşinqton razılaşmalarında xüsusi qeyd olunan TRIPP layihəsinə bir dəfə də olsun istinad edilməməsi, Azərbaycana qarşı mütəmadi istifadə olunan "müşahidə missiyası"nın fəaliyyətinin davam etdirilməsi ilə bağlı müddəalar da diqqət çəkir. Qeyd edək ki, hər iki məsələ sülh gündəliyinin irəlilədilməsi istiqamətində ciddi maneə olaraq dəyərləndirilirdi. Lakin Vaşinqton görüşü zamanı kommunikasiyaların açılmasını şərtləndirən və bu gün ciddi şəkildə reallaşması istiqamətində addımlar atılan TRIPP layihəsi və sərhədlərdə üçüncü dövlətlərin və ya təşkilatların qüvvələrinin yerləşdirilməməsinə dair anlaşma da şübhə altına alınır.

### İRƏVANIN ŞÜBHƏLİ DAVRANIŞLARI

Bütün bu məqamlar bir daha İrəvanın sülh prosesindəki səmimiliyinə ciddi şübhələr yaradır. Digər tərəfdən, Aİ-nin "sülhə dəstək" bəyanatları da qurumun gələcək fəaliyyət və əməkdaşlıq imkanlarını məhdudlaşdırır. Bakı prosesi diqqətlə izləməkdədir. Avqustun 8-dən etibarən postmünaqişə dövründə əldə edilmiş müsbət irəliləyişlər fonunda keçmiş münaqişənin elementlərini yenidən gündəmə gətirilməsi bəzi qüvvələrin sülh sazişinin imzalanmasında maraqlı olmadığını bir daha ortaya qoyur. XİN-in də bəyanatında qeyd edildiyi kimi, Azərbaycan tərəflərin məlum məsələ ilə bağlı konkret addımlar atacağını gözləyir. Bununla belə, vəziyyəti diqqətlə izləyərək zəruri nəticələr də çıxaracaq. Bu nəticələrin Ermənistan üçün hansı təsirlərinin olacağı barədə isə artıq İrəvan düşünməlidir.

# TİBBİ SIĞORTA MODELİNDƏ YENİLİK

Ekspertlərin fikrincə, icbari və könüllü tibbi sığortanın bir mexanizmdə birləşdirilməsi həm bazarın liberallaşmasına, həm də tibbi xidmətlərdə rəqabətin artmasına səbəb ola bilər. Eyni zamanda, qiymətlərin stabilləşməsi, könüllü sığorta paketlərinin daha əlçatan olması və tibbi xidmətlərin keyfiyyətinin yüksəlməsi gözlənilir.

**SEVİNC ABBASOVA**

Azərbaycanda tibbi sığorta sistemində yeni mərhələ başlaya bilər. Mərkəzi Bank tibbi sığortanın icbari və könüllü seqmentini bir mexanizmdə birləşdirən yeni model hazırlayır. Sözügedən qurumun Maliyyə Sektorunun Davamlı İnkişafı Departamentinin direktoru Rüstəm Tahirov Bakıda keçirilən "Bank və sığorta sektorlarının inteqrasiyası" mövzusundakı tədbirdə bildirib ki, qurum hazırda icbari və könüllü tibbi sığortanın inteqrasiya olunduğu model üzərində işləyir: "Bu model bir sıra ölkələrdə mövcuddur. Hazırda biz onun tətbiqi üzərində çalışırıq. Məqsədimiz digər ölkələrin uğurlu təcrübəsinə uyğun olaraq icbari tibbi sığortanın imkanlarından istifadə etməklə sığorta şirkətlərinin risklərini azaltmaq, tibbi sığortaya əlçatanlığı artırmaqdır. Eyni zamanda, tibbi sığorta haqqının daha əlçatan olması istiqamətində layihəmiz var".

Hazırda könüllü tibbi sığorta paketləri yalnız kommersiya əsasları ilə təqdim olunur və qiymətlər vətəndaşın büdcəsinə ciddi təsir edir. Yeni model isə bu xərc yükünün bir hissəsinin icbari sistemlə inteqrasiya olunaraq optimallaşdırılmasını nəzərdə tutur.

Bəs görəsən, bu mexanizm necə işləyəcək? Bu addımın atılmasında məqsəd nədir? Faydası nə olacaq?

Ekspertlərin fikrincə, icbari və könüllü tibbi sığortanın bir mexanizmdə birləşdirilməsi həm bazarın liberallaşmasına, həm də tibbi xidmətlərdə rəqabətin artmasına səbəb ola bilər. Eyni zamanda, qiymətlərin stabilləşməsi, könüllü sığorta paketlərinin daha əlçatan olması və tibbi xidmətlərin keyfiyyətinin yüksəlməsi gözlənilir. Bu modelin tətbiqi sığorta şirkətlərinin maliyyə yükünü azaltmaqla, bazarın dayanıqlığını da gücləndirə bilər.




## Beynəlxalq təcrübə nə deyir?

Dünyanın bir sıra ölkələrində tibbi sığortanın icbari və könüllü seqmentlərinin birgə tətbiq olunduğu hibrid model uzun illərdir mövcuddur. Xüsusilə Sloveniya bu sahədə ən uğurlu nümunələrdən biri hesab olunur. Ölkədə icbari sığorta bazanı təmin edir, könüllü sığorta isə həmin bazanın əhatə etmədiyi xidmətlərin xərclərini qarşılayır və sistemdə risklər dövlət fondu ilə özəl sığorta şirkətləri arasında bölüşdürülür. Niderlandda da icbari sığorta bütün əhalini əhatə edir, könüllü paketlər isə əlavə xidmətləri təmin edir və onların maliyyələşməsi icbari sığorta fondla inteqrasiya olunmuş mexanizmlərlə tənzimlənir. Fransa isə könüllü tibbi sığorta haqlarının bahalaşmaması üçün müəyyən sosial qruplara dövlət dəstəyi təqdim edir. Bu təcrübələr göstərir ki, iki sistemin bir modeldə birləşdirilməsi həm xidmətə çıxışı genişləndirir, həm də vətəndaşın üzərindəki maliyyə yükünü azaldır.

### GƏLƏCƏKDƏ FAYDALI OLA BİLƏR

Milli Məclisin Səhiyyə komitəsinin üzvü Pərvanə Vəliyeva bildirir ki, hələlik bu iki sığorta seqmentini bir mexanizmdə birləşdirən model yoxdur: "Özəl sığorta şirkətləri tamamlayıcı sığortanı edə bilərlər. Məsələn, dövlət tibb müəssisələrində vətəndaş üçün hər hansı xidmət zərfinə daxil edilməyən tibbi xidmətin göstərilməsi tələb olunursa, onun üzərində özəl sığorta əlavə paket hazırlaya və xərcləri qarşılaya bilər".


Pərvanə Vəliyeva

## "Ən yaxşısı icbari tibbi sığortanı normal vəziyyətə gətirməkdir"

Professor Adil Qeybulla vurğulayır ki, ilk növbədə icbari və könüllü tibbi sığortanın mahiyyətini dəqiq fərqləndirmək vacibdir. Onun sözlərinə görə, icbari tibbi sığorta əhalinin bütün təbəqələri üçün tibbi xidmətlərin əlçatanlığını təmin edən sosial müdafiə formasıdır və bu, çox vacib bir tibbi xidmət növüdür: "Könüllü sığorta isə dövlətin iştirakı olmadan, tərəflərin razılığı ilə bağlanan sığortadır. İnsanlar bunu bağlaya da, bağlamaya da bilər. Bu sığorta vətəndaşın öz təşəbbüsü ilə həyati riskləri nəzərə alaraq konkret klinikada əldə etdiyi bir xidmət formasıdır ki, xəstəlik yarandıqda həmin klinikaya müraciət edə bilsin. Ən çox xroniki ağır xəstəliklər, ürək çatışmazlığı və ağciyər xəstəlikləri olan şəxslər tərəfindən istifadə olunur. Çünki bu xəstələr istənilən an tibbi xidmətə ehtiyac duya bilərlər. Buna baxmayaraq, bu xəstəliklərin müalicəsinin xərcləri həmçinin icbari tibbi sığorta ilə qarşılanır. Sadəcə, imkanı olan şəxslər işlərini rahat qurmaq üçün könüllü sığortadan da yararlanırlar. Xarici təcrübədə tibbi xidmətlər bahalı olduğundan, könüllü sığortaya sərf olunan vəsait də az deyil".


Adil Qeybulla


Ramil Kərimov

A.Qeybulla düşünür ki, icbari və könüllü tibbi sığortanı birləşdirmək mexanizmi hələ aydın deyil və ən yaxşısı icbari sığortanı normal vəziyyətdə qurmaq, könüllü sığortanı isə fərdi şəkildə, istəyənlərin istifadə etməsi üçün saxlamaqdır.

Sığorta məsələləri üzrə ekspert Ramil Kərimov isə bildirir ki, könüllü və icbari sığortanın birləşdirilməsi təminat dairəsini genişləndirmək baxımından faydalı olar: "İcbari sığorta zərflərində bəzi xəstəliklər nəzərdə tutulmayıb. Həmin risklərdən könüllü qaydada sığortalanmaq vacibdir. Hazırda planlaşdırılan birləşmə ilə demək olar ki, bütün könüllü sığorta növləri təminat siyahısına daxil ediləcək. Bunun nəticəsində vətəndaşlara daha geniş əhatəli tibbi xidmətlər təqdim olunacaq. Eyni zamanda, bəzi klinikalar hələ də icbari sığorta ilə əməkdaşlıq etmir və daha çox könüllü sığorta paketləri ilə işləyirlər. Bu tibb müəssisələri iri şirkətlərlə əməkdaşlıq quraraq vətəndaşlara daha üstün və keyfiyyətli təminat paketləri təqdim edirlər. Birlikdə işlədikdə, bu model bütün sığorta növlərinə aid təminatları əhatə edə bilər. Hazırda könüllü sığorta üzrə şirkətlərin təminat dairəsi və sığorta qaydaları Mərkəzi Bank tərəfindən tənzimlənir və şirkətlər bu təminatı həyata keçirmək üçün icazə almalıdır".

# BİZİMKİLƏRİN YENİ DAŞINMAZ ƏMLAK MƏKANI

Azərbaycanlıların Türkiyədən ev alışı 2025-ci ilin ilk 10 ayında 741 mənzilə çatıb. Bu, ötən illə müqayisədə 8,6 faiz çoxdur. Mütəxəssislər qiymət baxımından Türkiyədə eyni məbləğə daha geniş və münasib mənzil almaq mümkün olduğu üçün bu tendensiyanın davam edəcəyini bildirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Türkiyə Statistika Qurumunun 2025-ci ilin yanvar-oktyabr dövrü üzrə açıqladığı rəsmi məlumatlara əsasən, Azərbaycan vətəndaşları bu ilin ilk on ayında Türkiyədə ümumilikdə 741 mənzil alıblar. Bu, ötən ilin analoji dövrü ilə müqayisədə nəzərəçarpacaq artım olduğunu göstərir. Belə ki, 2024-cü ilin yanvar-oktyabr aylarında Türkiyədən cəmi 682 mənzil alan Azərbaycan vətəndaşları 2025-ci ildə bu göstəricini 59 mənzil və ya təxminən 8,6 faiz artırıblar. 2025-ci ildə aylar üzrə göstəricilər belədir: yanvar - 50, fevral - 87, mart - 66, aprel - 59, may - 75, iyun - 71, iyul - 93, avqust - 77, sentyabr - 67, oktyabr - 96 mənzil. Ən yüksək aylıq satış oktyabrda qeydə alınıb.

Rəqəmlərdən də göründüyü kimi, azərbaycanlıların Türkiyədən aldığı evlərin sayı artmaqda davam edir. Bəs bunun səbəbi nədir? Türkiyə əmlak bazarına yönəlməmizin səbəbi ölkəmizdə mənzil bazarında qiymətlərin fantastik şəkildə yüksəlməsi ola bilərmi?

### "ARTIM ÖLKƏMİZDƏKİ BAHALAŞMA İLƏ ƏLAQƏLƏNDİRİLMƏMƏLİDİR"

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Orucun sözlərinə görə, azərbaycanlılar təkcə Türkiyədən deyil, digər ölkələrdən də əmlak almağa yönəlirlər. Bunun isə səbəbi heç də Azərbaycandakı əmlak qiymətləri deyil: "Türkiyədə əmlak alanların artmasının müəyyən səbəbləri mövcuddur. Orada miqrasiya şərtləri radikal şəkildə mürəkkəbləşib. Oturum və ya vətəndaşlıq almaq üçün Türkiyədə əmlaka sahib olmaq tələb edilir. Hansı ki, Azərbaycanda da bu belədir. Düşünürəm ki, bu artım gələcək illərdə də davam edəcək. Əsasən İstanbul, Ankara, Antalya, Bodrum kimi şəhərlərdə evə sahib olmaq Azərbaycan vətəndaşları üçün prioritet təşkil edir. Daha çox zəlzələlərin aktiv olmadığı bölgələrə üstünlük verilir. Əmlak əldə edənlər ya Türkiyədə yaşayıb-işləmək, ya da təhsil almaq məqsədilə gedən azərbaycanlılardır".

### "MƏQSƏD KİRAYƏLƏRDƏN DAHA YÜKSƏK GƏLİR ƏLDƏ ETMƏKDİR"

V.Oruc düşünür ki, insanları Türkiyə əmlak bazarına yönəldən oradakı gəlir əldə etmək imkanlarıdır: "Məqsəd kirayələrdən daha yüksək gəlir əldə etməkdir. Çünki orada kirayə gəlirləri ölkəmizə nisbətən daha yüksəkdir. Məsələn, 200 min manata ev alıb Bakıda 600-800 manat arası kirayə gəlir əldə etmək mümkündürsə, həmin məbləğ Türkiyədə 1000-1200 manat civarındadır".

### "TÜRKİYƏ ƏMLAK BAZARI DAHA RAHATDIR"

Əmlak bazarı üzrə ekspert Anar Nəsirov isə bildirdi ki, Türkiyə əmlak bazarı Azərbaycandan daha sərfəlidir: "Azərbaycanda hazırda əmlak bazarında qiymət artımı müşahidə olunur. Türkiyə əmlak bazarı daha rahatdır. Həmçinin orada qiymət artımı bizdəki qədər deyil. Türkiyədə əmlak qiymətləri Azərbaycandan daha münasibdir. Məsələn, Azərbaycanda yeni binadan birotaqlı 50 kvadratlıq mənzil aldıqda 200-220 min pul verdikdə, Türkiyədə bu qiymətə üçotaqlı mənzil almaq mümkündür. Düzdür, yerinə görə qiymətlər dəyişir. Amma münasib qiymətli əmlaklar da az deyil".

A.Nəsirovun sözlərinə görə, Türkiyə ilə əlaqələrimiz inkişaf etdikcə, bu, rəqəmlərə də təsirsiz ötüşməyəcək: "Azərbaycanlılar üçün Türkiyədə yaşamaq daha asandır. Bu da vətəndaşlarımızın orada əmlak almasına gətirib çıxarır. Vətəndaşlarımız Türkiyəyə oxumağa, işləməyə gedirlər. Sərmayə əldə etmək üçün də ev alanlar az deyil. Yaxud Türkiyəyə istirahətə gedən insanlar düşünürlər ki, hər il gəldikdə kirayəyə pul verməkdənsə, ev almaq daha sərfəlidir. Həmçinin qalmadığı dövrdə mənzili kirayə verib oradan gəlir də əldə edə bilər. İstanbul, Ankara, Bodrum, Antalya, İzmir, Kuşadası kimi ərazilərə daha çox üstünlük verirlər. Bu şəhərlərdə vətəndaşlarımız həm yaşayır, həm də istirahət etmək üçün mənzil sahibi olurlar. Düşünürəm ki, Türkiyədə ev alanların sayı bundan sonra daha da artacaq".




## Qiymətlər ucuz deyil

Hazırda azərbaycanlı alıcıların daha çox üstünlük verdiyi İstanbul, Ankara, Antalya, Bodrum, İzmir və Kuşadası şəhərlərində mənzil qiymətləri şəhərə, rayona və binanın xüsusiyyətlərinə görə dəyişir. İstanbulda birotaqlı mənzillərin qiyməti orta hesabla 120-180 min ABŞ dolları arasındadır. İkiotaqlı evlər 170-250 min, üçotaqlı mənzillər isə 230-350 min dollar civarındadır. Ankarada qiymətlər nisbətən daha münasibdir. Burada birotaqlı evləri 80-130 min dollara, ikiotaqlı mənzilləri 110-180 min dollara, üçotaqlı evləri isə 160-240 min dollara almaq mümkündür. Antalya şəhərində birotaqlı mənzillər 90-150 min dollar, ikiotaqlılar 130-210 min dollar, üçotaqlılar isə 180-280 min dollar aralığında təklif olunur. Bodrumda qiymətlər daha yüksəkdir. Bu şəhərdə birotaqlı mənzillər 150-250 min dollardan başlayır, ikiotaqlı evlər 220-350 min dollara qədər yüksəlir, üçotaqlı mənzillər və villalar isə əsasən 300 min dollardan yuxarı təklif edilir. İzmir şəhərində birotaqlı mənzillərin qiyməti 85-140 min dollar, ikiotaqlılar 120-200 min dollar, üçotaqlılar isə 170-260 min dollar təşkil edir. Kuşadasında isə birotaqlı evləri 75-120 min dollara, ikiotaqlıları 110-180 min dollara, üçotaqlı mənzilləri isə 150-230 min dollar aralığında tapmaq mümkündür. Bu qiymətlər əsasən yeni tikililərin orta bazar göstəriciləridir və mənzilin dənizə yaxınlığı, təmir səviyyəsi və yerləşdiyi əraziyə görə dəyişə bilir.



Vüqar Oruc

Anar Nəsirov

# XAM İPƏK AÇILAN İSTEHSALAT MƏRKƏZİNDƏN REPORTAJ



Baramanın taleyi kənddə başlayıb istehsalatda bitir deyirlər. Kənddən başlayan yol istehsalat sexlərinin qaynar su dolu qazanlarına, şotkaların ritmik səslərinə və çarxların fırlanan döngələrinə çatır. Zəhmət və sənətkarlığın birləşdiyi yerdə barama ipək sapına çevrilir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az













Qaynar su dolu qazanlar, əllərindəki şotka ilə baramanın üzərində işləyən qadınlar, küncdə dayanmadan fırlanan çarxlar... Bu məkana daxil olanda səni ilk qarşılayan baramanın açılma prosesinin spesifik qoxusu və məkanın rütubətidir. O sapı almaq üçün hər kəs o qədər incəliklə işləyir ki... Onların nə çılpaq əlləri ilə təmasda olan qaynar su narahat edir, nə də havanın rütubəti. Məqsəd birdir: keyfiyyətli ipək sapının hazırlanması.

Bura Şəkidə yerləşən "Azəripək" ASC-nin baramadan xam ipək açan istehsalat mərkəzidir. İstehsalat prosesini izlədikcə 19-cu əsrdə Fransada ipək sənəti ilə məşğul olan bir ailənin hekayəsini əks etdirən "İpək" filmi gözlərimin önünə gəlir. Filmdə ipək yalnız sənaye məhsulu deyil, zəhmət, incəlik və səbrin simvolu kimi təqdim olunur. Bu sexdə fəaliyyət göstərən qadınların zəhmətkeş əlləri ilə ərsəyə gətirdikləri hər sapda bu sözlərin canlı izini görmək mümkündür.

Burada iş bir saniyə belə dayanmır. İpəyin ən vacib mərhələsi - sapın tapılıb çarxa ötürülməsi məhz bu sexdə baş verir. Biz də bu qədim sənəti müşahidə etmək üçün sexin iş prosesini addım-addım izləyirik.

## "SƏHV ETSƏN, İPƏK TELİNƏ ZƏRƏR DƏYƏ BİLƏR"

Baramanın ipəyə çevrilməsi bir neçə mərhələdən keçir. İlk addım baramanın təmizlənməsidir. Baramanın üzərində toz, pürzə və digər çirklər olur. Bu çirklərin təmizlənməsi baramanı tor kimi yumşaq və işlənməyə hazır vəziyyətə gətirir. Sonra barama qaynar suya salınır. Qaynar su baramanın yumşalmasına kömək edir və ipək telini daha asan tapmağa imkan yaradır.

Bu prosesi bizə 40 ildir baramaaçan sexində işləyən Ceyran Eynullayeva göstərir: "Barama təmiz olmadıqda ipək sapı keyfiyyətsiz çıxır. Təmizlənmiş barama yumşaq olur, amma eyni zamanda möhkəmdir və ipək telinin çıxarılması üçün hazır vəziyyətə gəlir. Sonra baramanı qaynar suya salırıq. Bu mərhələdə məqsəd ipək telini tapmaqdır. Qaynar su baramanı yumşaldır və telin uclarını aydın göstərir. Sonra baramanı şotka ilə "döyürük", hər fırlanış baramanın uclarını açır. Şotka ilə barama "döymək" çox incə işdir, səhv etsən, ipək telinə zərər dəyə bilər".

Digər bölmədə işləyən Mirvari İbrahimovaya baxıb təəccüblənirəm. Qaynar suyun buxarı ətrafa yayılsa da, o, əlini rahatlıqla suya salır və prosesi icra edir. "Əliniz yanmır?" sualını verdikdə isə gülümsəyərək deyir: "Qızım, biz buna öyrəşmişik, işimizi sevə-sevə görürük. Hər ipək sapı böyük zəhmət və əziyyət hesabına hazırlanır. Heç bir çətinliyimiz yoxdur, barama olsa sevə-sevə işləyərik. Amma may ayında mövsüm dayanır, işləyə bilmirik, çünki barama olmur. Barama üçün tinglər, ağaclar azalıb və insanların marağı çox deyil. Əvvəllər yerlər, sahələr dolu olurdu, barama bol idi".

## "QURD SAĞ QALARSA, BARAMANI DEŞİB ÇIXIR"

Əvvəlki illərdə Şəki İpək Kombinatında baş mühəndis işləyən Rasim Həsənov deyir ki, barama kənd təsərrüfatı məhsuludur. Onu zəhmətkeş kəndlilər yetişdirir və emal üçün ipək kombinatına təhvil verirlər: "Barama kombinatda ilk olaraq qurutma prosesindən keçir. Əgər barama yaş halda gətirilirsə, xüsusi aparatlarda qurudulur ki, içində olan qurd ölsün. Çünki qurd sağ qalarsa, kəpənəyə çevrilir və baramanı deşib çıxır. Deşilmiş barama isə artıq zay məhsul sayılır. Buna görə də baramanın qurudulması onun saxlanması və keyfiyyətinin qorunması üçün vacibdir. İkinci mərhələ sortlama prosesidir. "Sort sexi" adlanan bölmədə qadın işçilər baramanı "kalibr"lərə görə çeşidləyirlər. Keyfiyyətli ipək sapı əldə etmək üçün baramanın ölçüsü eyni olmalıdır. Müxtəlif ölçülü baramalardan da sap alınır, lakin istənilən qalınlıq və nömrə üçün barama mütləq "kalibr"lərdən keçməlidir. Məsələn, ipək kəlağayı üçün bir növ, xalça üçün daha qalın nömrəli sap tələb olunur. Sortlamadan əvvəl baramanın üzərindəki pambığabənzər qatı-pürzə təmizlənir. Əməliyyatın ardından barama ipək açma sexinə göndərilir".







**Fotolar:** Əjdər İbrahimov/Global Photostock

## "BARAMAÇILIQLA ORTA VƏ YAŞLI NƏSİL MƏŞĞUL OLUR"

Mirvari İbrahimova kimi digər əməkdaşlar da baramanın az olmasından narahatdırlar. Elə baramaçılıq sahəsinin də ən böyük problemi budur. Çünki onun yetişdirilməsi əvvəlki illərlə müqayisədə xeyli azalıb.

Bu peşənin əməkdarı olan R.Həsənov deyir ki, keçmişdə kəndlərdə ailələr yaz mövsümündən etibarən baramaçılıqla məşğul olurdu və ailənin bütün üzvləri bu prosesə cəlb edilirdi. Hazırda isə gənclərin bu sahəyə marağı çox zəifdir: "Baramaçılıqla əsasən orta və yaşlı nəsil məşğul olur. Gənclərin maarifləndirilməsi lazımdır, lakin bu da müəyyən çətinliklərlə müşahidə olunur. 1990-cı illərdən sonra kombinatda yeni mütəxəssislər yetişdirilməyib. Hazırda orada çalışanlar bu sənəti yalnız müşahidə və təcrübə yolu ilə öyrəniblər. Sənəti praktik yolla mənimsəmək olar, lakin texnologiyanı yalnız bu yolla öyrənmək mümkün deyil. Bunun üçün həm nəzəri bilik, həm də istehsalat təcrübəsi lazımdır. Bu balans olmadıqda keyfiyyətli nəticə əldə edilmir. Səbəb ölkədə baramaçılığa marağın azalması və bu ixtisas üzrə təhsil verən mərkəzlərin olmamasıdır".

## TƏK İSTƏKLƏRİ BARAMANIN BOLLUĞUDUR

Baramaya taleyi kənddə başlayıb istehsalatda bitir deyirlər. Yəni kənddən başlayan yol istehsalat sexlərinin qaynar su dolu qazanlarına, şotkaların ritmik səslərinə və çarxların fırlanan döngələrinə çatır. Burada - zəhmətin və sənətkarlığın birləşdiyi yerdə, barama ipək sapına çevrilir. İşçilərin də dediyi kimi, barama kənddə doğulmasa, ipək də olmaz, ondan ərsəyə gələn məhsullar da... Onların da tək istəyi baramanın bolluğudur. Çünki isti və rütubətli mühitdə nəfəs almaq çətin olsa da, istehsalatda çalışanların baxışında yorğunluq deyil, sənətə sevgi görünürdü. Onlar üçün bu, təkcə iş deyil, həm də ənənəvi sənətə sədaqətin davamıdır.

# AZƏRBAYCAN AVRASİYA REGİONUNDA İLK ÜÇLÜKDƏ

Azərbaycan Avrasiya regionunda ən böyük investorlar arasında üçüncü sırada qərarlaşıb. 2025-ci ilin iyul ayına olan məlumata görə, ölkənin xaricə yönəlmiş toplanmış birbaşa investisiyaları 41 layihə üzrə 3,219 milyard ABŞ dollarına çatıb.



Azərbaycan Avrasiya regionu ölkələri arasında birbaşa xarici investisiyaların (BXİ) ən böyük üç alıcısından biridir. "Report" Avrasiya İnkişaf Bankına (EDB) istinadən xəbər verir ki, 2025-ci ilin birinci yarısının sonuna ölkə iqtisadiyyatına cəlb edilmiş BXİ-nin həcmi 2016-cı illə müqayisədə 2,4 dəfə artaraq 5,439 milyard ABŞ dollarına çatıb.

### REGİON ÖLKƏLƏRİ ARASINDA ƏN YÜKSƏK GÖSTƏRİCİ

Məlumata görə, Azərbaycan üçün yüksək kapital tutumu xarakterikdir: bir layihəyə orta hesabla təxminən 302 milyon ABŞ dolları düşür ki, bu da region ölkələri arasında ən yüksək göstəricidir. Hazırda ölkədə 18 investisiya layihəsi həyata keçirilir və ümumi investisiya həcminin təxminən 90%-i (4,8 milyard ABŞ dolları) böyük bir layihənin - "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinə aiddir.

"Region üzrə doqquz ölkə bu ilin altı ayı ərzində bir milyard dollardan çox investisiya cəlb etməyə nail olub. Ən yüksək paya Özbəkistan (22,3%), Qazaxıstan (19,5%), Azərbaycan (11,2%), Belarus (10,4%) və Ermənistan (10,2%) malikdir.

2025-ci ilin ilk yarısının sonunda Azərbaycan iqtisadiyyatına yönəlmiş Rusiya BXİ-lərinin həcmi 5,4 milyard ABŞ dolları təşkil edib və bu, 2022-ci ilin göstəricisini 9,7% üstələyib. Bu məbləğin cəmi 10 layihə arasında bölüşdürülməsi isə bir layihənin orta dəyərinin yüksəkliyini - təxminən 540 milyon dollara çatdığını göstərir", - bank qeyd edir.

### Şirkətlərimiz fəaliyyət coğrafiyasını genişləndirir

EDB bildirir ki, Azərbaycan Avrasiya regionunda ən böyük investorlar arasında üçüncü sırada qərarlaşıb. 2025-ci ilin iyul ayına olan məlumata görə, ölkənin xaricə yönəlmiş toplanmış birbaşa investisiyaları 41 layihə üzrə 3,219 milyard ABŞ dollarına çatıb. 2016-cı ildən bəri bu göstərici 1,5 milyard dollar və ya 90% artıb ki, nəticədə Azərbaycan investorlar reytinqində dördüncü yerdən Belarusu geridə qoyaraq üçüncü pilləyə yüksəlib. Əsas investisiya sahələri telekommunikasiya (25%), nəqliyyat və logistika (22%) və ticarətdir (16%).

2025-ci ilin birinci yarısının yekunlarına görə, Avrasiya regionunun beş ölkəsinin xaricə yönəlmiş BXİ-ləri 1 milyard dollardan çox olub. Rusiya 38 milyard dollar, Qazaxıstan və Azərbaycan hər biri 3,2 milyard dollar, Ermənistan 1,4 milyard dollar, Belarus isə 1 milyard dollar investisiya yatırıb.

Məlumatda həmçinin bildirilir ki, Azərbaycan şirkətləri də fəaliyyət coğrafiyasını genişləndirir. Belə ki, Özbəkistan və Qırğızıstanda həyata keçirilən layihələrə təxminən 80 milyon ABŞ dolları yönəldilib. Bundan əlavə, Gürcüstan iqtisadiyyatının əsas investorları arasında 2025-ci ilin birinci yarısının sonuna hər biri 1,2 milyard dollar investisiya toplamış Azərbaycan və Rusiya şirkətləri də yer alır.



# SOCAR "MVM ONEnergy" ilə yeni saziş imzalayıb

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə Macarıstanın "MVM ONEnergy" arasında təbii qaz təchizatına dair yeni saziş imzalanıb. "Report" SOCAR-a istinadən xəbər verir ki, bu saziş SOCAR prezidenti Rövşən Nəcəfin "MVM Group"un baş icraçı direktoru Karoly Matrai ilə görüşündə imzalanıb.

Məlumata görə, 1 yanvar 2026-cı ildən qüvvəyə minəcək saziş Azərbaycan ilə Macarıstan arasında strateji enerji tərəfdaşlığının daha da möhkəmləndirilməsinə xidmət edir.

Məlumata görə, təbii qaz təchizatına dair yeni saziş şirkətlər arasında əvvəlki müqavilə əsasında hazırlanıb. Son illər ərzində hər iki şirkət uğurlu, etibarlı və qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərini davam etdiriblər. Tərəfdaşlığın uzadılması hər iki tərəfin uzunmüddətli enerji əməkdaşlığına və regional enerji təhlükəsizliyinə sadiqliyini əks etdirir.

Görüşdə şirkətlər arasında enerji sektorunun müxtəlif istiqamətləri üzrə əməkdaşlıq məsələləri nəzərdən keçirilib, cari layihələr və gələcək tərəfdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər qaz tədarükü, infrastruktur layihələri, davamlı enerji həlləri və regional tərəfdaşlıq istiqamətləri üzrə əməkdaşlığın genişləndirilməsi perspektivlərini müzakirə ediblər.

# "BAKCELL" BONUSLARLA ZƏNGİN YENİ "GO" TARİFLƏRİNİ TƏQDİM EDİR

İnnovasiya lideri "Bakcell" danışıq dəqiqələri, internet, SMS paketləri, rouminq və digər üstünlüklərlə bol yeni "GO" tariflərini təqdim edir. 0.99 AZN-dən başlayan "Go" tariflərindən birinə qoşulmaqla abunəçilər, həmçinin "WhatsApp", "Facebook", "Instagram", "TikTok" və "YouTube" platformalarında istifadə üçün əlavə internet bonusları əldə edəcəklər.

Məsələn, "GO 11.99" tarifi çərçivəsində "Bakcell" abunəçiləri 5 GB internet, 300 ölkə daxili danışıq dəqiqəsi, bütün istiqamətlər üzrə 150 SMS və "WhatsApp"da limitsiz yazışmaq imkanı qazanacaqlar.




Sözügedən tarifə qoşulmaq üçün sadəcə *905#YES kodunu yığmaq kifayətdir. Qeyd edək ki, cari tariflərdən yeni "GO" tariflərinə keçid tamamilə ödənişsizdir. "GO" tarifləri barədə ətraflı məlumatı rəsmi sayt, həmçinin "Bakcell" mobil tətbiqindən əldə edə bilərsiniz.

Kaspi — ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2536
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# “PORTUQALİYANIN BEŞİYİ” HESAB EDİLƏN ŞƏHƏR

Gimarayeş Portuqaliyanın ölkə kimi formalaşmasında mühüm rol oynayıb. Portuqaliyanın ilk kralı Afonso Henriques məhz burada anadan olub. Şəhərdə gəzərkən onun tarixinə qərq olmamaq mümkün deyil.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Portuqaliyada tətil planlaşdırarkən səyahətçilər tez-tez Lissabon, Porto şəhərlərini, Alqarve və Azor adaları kimi tanınmış yerləri seçirlər. Lakin turizimçilər “səyahət təcrübənizi bu yerlərlə məhdudlaşdırmaqla, Portuqaliya tarixinin, mədəniyyətinin və yerinin əhəmiyyətli bir hissəsini əldən vermiş olursunuz”, - deyə əminliklə bildirirlər. Çünki ölkənin şimal hissəsinə səfər etmədən bütünlüklə bu coğrafiyaya bələd olmaq mümkün deyil. Portuqaliyanın ilk paytaxtı olmuş Gimarayeş isə bu siyahıda öndə durur. “Portuqaliyanın beşiyi” adlanan bu şəhərin mərkəzinin istehkam divarında məşhur “Aqui nasceu Portugal” yazısı var. Bu, “Portuqaliya burada anadan olub” deməkdir.

Gimarayeş Portuqaliyanın ən böyük şəhərləri arasında 13-cü yerdədir. Beynəlxalq Turizm Filmləri Festivalı Komitəsinin (CİFFT) dünya turizm filmlərini mükafatlandırma mərasimini bu şəhərdə keçirməsi də təsadüfi deyildi. Festivalın münsiflər heyətinin üzvü kimi iştirak etdiyim mərasim Gimarayeş şəhəri ilə yanaşı ölkənin Porto, Braqa, Barseluş kimi turistik şəhərlərini də yaxından tanımağım üçün əla fürsət oldu.

### İLK KRALIN DOĞULDUĞU YER

Gimarayeş Portuqaliyanın ölkə kimi formalaşmasında mühüm rol oynayıb. Portuqaliyanın ilk kralı Afonso Henriques məhz burada anadan olub. İndi bu şəhərdə gəzərkən onun tarixinə qərq olmamaq mümkün deyil. Zəngin tarixi irs – qayğı ilə qorunub saxlanılan orta əsr tikililəri, çoxsaylı kilsələr, hazırkı ölkə prezidentinin iqamətgahı olan 14-cü əsr Braganza Hersoqlarının Sarayı, şəhərin ən hündür nöqtəsi sayılan Penha dağının təbii mənzərəsi, tarixi binalar... Bunları görəndə düşünürsən ki, Gimarayeş haqlı olaraq UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Penha dağına qalxan kanat yolu da şəhəri turistlər üçün cəlbedici edir.

Şəhərin mərkəzində ölkənin ən yaxşı qorunub saxlanılan orta əsr tikililərindən olan Gimarayeş qəsri (Castelo de Guimaraes) yerləşir. X əsrdə tikilmiş qala 1110-cu ildə Kral Afonso Henriquesin doğulduğu yer hesab olunur. Gələcək kral qalanın qərb hissəsində yerləşən Sao Miguel do Castelo (Sao Miguel) kilsəsində vəftiz olunub.

### BURADA ÖZÜNÜ ORTA ƏSR ŞƏHƏRİNDƏ HİSS EDƏ BİLƏRSƏN

Gimarayeşin tarixi mərkəzi şəhər divarları içərisində yerləşir. Bu gün şəhər zərif dəmir verandalar, qranit eyvanlar, dar küçələri tağlarla birləşdirən malikanələr, hamar daş səkilər, qüllələr və monastır həyətləri ilə diqqətəlayiq dərəcədə qorunub saxlanılan memarlıq ansamblına malikdir. İstənilən turist burada özünü orta əsr şəhərində hiss edə bilər.

Bələdçinin müşayiəti ilə qala divarları boyunca gəzir və Penha dağının inanılmaz mənzərələrindən zövq almaq üçün qala qülləsinin zirvəsinə qalxırıq. Buradan şəhərə füsunkar mənzərə açılır. Bu şəhərdə Lissabon və ya Portonun izdihamı yoxdur.

Gimarayeşdə yaşamaq tarix, mədəniyyət və qədim adət-ənənələrlə əhatə olunmaq deməkdir. Burada həyat daha yavaş axır və küçələr yalnız məşhur orta əsrlər festivalı da daxil olmaqla böyük şənliklər zamanı adamla dolur. Bu, Gimarayeşi təqaüdçülər, uşaqlı ailələr və böyük şəhərlərin tempi və səs-küyündən bezən insanlar üçün ideal hala gətirir. İnsanlar bu kiçik orta əsr şəhərini təbiətdən, tarixi irsdən və ləzzətli yerli mətbəxdən zövq almaq, dinc və asudə bir həyat sürmək üçün seçirlər.




## PORTUQALİYANIN ƏN YAXŞI UNİVERSİTETLƏRİNDƏN BİRİ DƏ BURADADIR

Gimarayeş həm də gənclər üçün əlverişli yerdir. Çünki şəhərdə Minho Universitetinin iki kampusundan biri yerləşir. Bu, Portuqaliyanın ən yaxşı universitetlərindən biridir. 2013-cü ildə Minho Universiteti “Times Higher Edication” reytinqində dünyanın ən yaxşı 100 universiteti sırasına daxil olub. “Bu şəhər həqiqətən çoxyönlü və hər yaşdan olan insan üçün uyğundur. Ətraf şəhərlərdən, hətta Portodan bura işləmək üçün gələnlər var”- deyə bələdçi bildirir. Əlavə edir ki, çox kiçik bir şəhər olmasına baxmayaraq, Gimarayeş ölkənin sənaye cəhətdən inkişaf etmiş bölgələrindəndir. Bələdiyyə xüsusilə yaxşı inkişaf etmiş tekstil sənayesi ilə Portuqaliya iqtisadiyyatında mühüm rol oynayır: “Tekstil fabrikləri və tikinti materialları istehsalı ölkə iqtisadiyyatında mühüm yer tutur. Gimarayeşdə çox sayda sənaye şirkəti, fabrik və digər təşkilatlar var ki, bu, şəhəri yaşamaq üçün olduqca cəlbedici bir yerə çevirir. Gimarayeş ayaqqabı sənayesi ilə də məşhurdur. Keçən il Portuqaliyada ümumilikdə 600 milyon cüt ayaqqabı istehsal olunub. Onun çox hissəsi Gimarayeşin payına düşüb. Gimarayeş həm də



turizm şəhəridir. Braqanza Hersoqalarının sarayı bütün ölkə üzrə ən çox ziyarət olunan yerdir. Gimarayeş hotel infrastrukturunun əsas xüsusiyyətlərindən biri tarixi olmalarıdır. Bu da qonaqlamada vacib amildir”.

### YOL BOYUNCA ÜZÜM TƏNƏKLƏRİ, ZEYTUN AĞACLARI

Gimarayeş bələdiyyəsi hektarlarla ölçülən təsərrüfat torpaqları ilə diqqət çəkir. Yol boyunca üzüm tənəkləri, zeytun ağacları sıralanır. Yerli insanlar bu təsərrüfatlarda yetişdirilən orqanik meyvə-tərəvəzdən alırlar. Bələdiyyə ərazisində istehsal olunan şərab növlərinin sayı isə 50-dən çoxdur.

Gimarayeşdə futbolu da çox sevirlər. Yerli “Vitoria Gimarayeş” komandasının oyunu zamanı 30 min nəfərlik Afonso Henriques stadionuna bilet tapmaq çətindir. Komanda 2013-cü ildə Portuqaliya kubokunun qalibi olub. Bələdiyyənin “Moreirense” komandası isə iki dəfə Portuqaliya Liqa Kubokunun qalibi kimi sevilir.

# SMARTFON BAZARI DOYMAĞA BAŞLAYIB

**Azərbaycanda mobil cihaz bazarı ardıcıl beşinci aydır geriləyir. Smartfon idxalı azalır, qiymətlər isə artır. Mütəxəssislər bu tendensiyanı həm iqtisadi çətinliklər, həm də texnoloji yeniliklərin zəifləməsi ilə əlaqələndirirlər.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Bu ilin noyabr ayında Azərbaycanın elektron cihaz bazarında (kompüter, mobil cihaz və planşetlər) mobil cihazların payı 41,97 faiz təşkil edib. Bu, oktyabr ayına nisbətən 5,97 faiz bəndi, bir il əvvələ nisbətən isə 29,84 faiz bəndi azdır. Beləliklə, mobil cihazların bazar payı ardıcıl olaraq beşinci aydır azalır. Ümumi azalma 48 faiz təşkil edib. 2025-ci ilin yanvar-sentyabr ayları ərzində Azərbaycana 299 milyon 861 min ABŞ dolları dəyərində 951 min 461 ədəd smartfon idxal edilib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici say baxımından 8.2 faiz və ya 85.4 min ədəd azalıb, dəyər baxımından isə 3.7 faiz və ya 10.6 milyon ABŞ dolları artıb. Rəqəmlərdən də görünür ki, mobil cihazların sayı azalıb. Bəs buna səbəb nədir?

### "VƏTƏNDAŞLAR BAHALI SMARTFON ƏLDƏ ETMƏK İSTƏMİRLƏR"

İqtisadçı-ekspert Asif İbrahimovun sözlərinə görə, əgər mobil cihazlar azalıbsa, deməli, digər cihazlara olan tələbatda artım olub: "Statistika insanların seçimlərinin dəyişdiyini göstərir. Ötən illər ərzində bir smartfonun orta qiyməti 480 manata başa gəlirdisə, bu il yeni qaydaların, icazələrin, lisenziyaların tətbiqindən sonra daşınma xərcləri və s. artdı. Bütün bunların hamısının fonunda hazırda smartfonlar ölkəmizə 550 manata gəlib çıxır. Bu da qiymətin 13-15 faiz artması deməkdir. Ölkəyə gətirilən telefonların bahalaşması müşahidə edilirsə, vətəndaşlar bahalı smartfon əldə etmək istəmirlər".

A.İbrahimovun fikrincə, artıq insanlar daha lazımlı məsələlərə pul xərcləyirlər: "Digər bir səbəb kredit şərtlərinin asanlaşmasıdır. Məsələn, istehlakçı smartfonu bir illik kreditlə götürürsə, o, artıq bu zaman ərzində yeni bir telefon əldə etməyəcək. Əvvəllər insanlar sırf zövq üçün 4-5 ayda bir telefon dəyişirdisə, artıq belə deyil. Son zamanlar əhalinin gəlirlərinin azalması, inflyasiya fonunda ərzağa, kommunal xidmətlərə xərclədikləri vəsait artdığına görə, artıq qənaət edirlər. Pulların daha lazımlı yerlərə xərcləyirlər".

## "TELEFONLAR YENİLƏNMƏDİKCƏ, MARAQ DA AZALIR"

İT mütəxəssisi Natiq Məmişov isə bildirdi ki, telefonlarda heç bir yenilik olmaması onlara marağın bir qədər azalmasına səbəb olur: "Bazar doymağa başlayıb. Əksər insanların artıq smartfonu var. Yenisini almaq adətən "məcburi ehtiyac" yox, "var olanı dəyişmək" deməkdir. Bu da satışların hər ay sabit və ya azalana doğru getməsinə səbəb olur. Bu il bir çox smartfonlar çox da ciddi dəyişikliklər təklif edə bilmədi. 3-4 il əvvəlki telefonla bu ilin orta seqment modeli arasında gündəlik istifadə baxımından uçurum yoxdur. Kamera bir az yaxşı, ekran bir az parlaqdır. Mesaj, sosial şəbəkə, kamera, mobil bank, oyun - hamısı üçün orta səviyyəli telefon kifayət edir. Yeniliklər daha çox kamera detalları, ekran parlaqlığı, bir az daha çox RAM üzərindədir. Gündəlik istifadəçi üçün bu fərq hiss olunmur. Yəni sırf şəkil çəkən biri o fərqləri hiss edə və başa düşə bilməz. Qatlanan ekranlar, AI funksiyaları var, amma kütləvi istifadəçi üçün hələ bahalı seqmentdir. Marağın artdığı hissə AI funksiya və proqramlardadır. Amma bunların çoxu köhnə modellərə də yeniləmə ilə gəlir. Ona görə də texnologiya insanı yeni modelə məcbur etmir".

**SMARTFON İDXALI**

**2025-ci il yanvar-sentyabr**

**951 min 461 ƏDƏD**

**299 milyon 861 min dollar DƏYƏR**

## "Telefonları dəyişmək dövrü uzanıb"

N.Məmişovun sözlərinə görə, telefonların yeniləmə dövrü də uzanır. Üç ildən bir telefon dəyişmə dövrü indi 4-5 ilə çıxıb: "Yəni daha az telefon alınıb. Buna da əksərən maddi durum təsir edir. Qiymətlər artır, premiuma keçid var. Bir ədəd mobil telefonun orta idxal qiyməti 474 manatdan 536 manata qalxıb. Deməli, insanlar daha nadir hallarda telefon alır, amma alanda bir az daha bahalı modelə keçir. Bu, ədəd üzrə payı azaldır, dəyər üzrə isə tam çökməyə qoymur. Rəsmi idxal statistikasına düşməyən ikinci əl telefonlar və təmir olunmuş cihazlar da tələbin bir hissəsini qarşılayır. Bu da rəsmi bazar payını aşağı göstərir. Son illər pandemiyadan sonra noutbuk, planşet, TV, konsol kimi cihazlara maraq artıb. Eyni büdcə daxilində daha çox "ev, ofis, təhsil" tipli cihazlara yönəlmə mobilin ümumi elektron bazardakı payını aşağı çəkir. Bazar payının düşməsində həm iqtisadi, həm də texnoloji sıçrayışın olmaması faktoru var".

### "TELEFON NÖVBƏTİ 10 İLDƏ DƏ ƏSAS CİHAZ OLMAQDA DAVAM EDƏCƏK"

Ekspertin fikrincə, smartfonlara maraq azalsa da, onlar hələ yaxın 10 ildə əsas cihaz olaraq qalmağa davam edəcək: "Amma "mərkəzi ekran" yox, "mərkəzi idarəetmə pultu" kimi olacaq. Saat, qulaqcıq, avtomobil sistemi, smart ev – hamısının idarəedicisi yenə telefondur. Bank işi, rəqəmsal imza, sosial şəbəkə, messencerlər, təsdiqləmə kodları - hamısı telefon üzərindədir. Buna görə, təhlükəsizlik, identifikasiya və şəxsi məlumatlar baxımından telefon mərkəzi cihaz rolunu hələ uzun müddət itirməyəcək. Gələcəkdə telefon fiziki olaraq kiçilə, bəlkə də hesablama moduluna çevrilə bilər".



Asif İbrahimov



Natiq Məmişov

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



## YAZIÇI-PUBLİSİST NATİQ MƏMMƏDLİ "SEV" ROMANININ TƏQDİMATINI KEÇİRDİ

# "SEV"MƏYƏ ÇAĞIRAN ROMAN



Natiq Məmmədlinin "Sev" romanı dünyada insanlar arasında sevgiyə, mərhəmətə, xeyirxahlığa böyük ehtiyac olduğunu çatdırmağa çalışır. Roman özündə həm də müasir dünyanın əhvalını və düşüncə çalarlarını nümayiş etdirir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az



İnsanların sevgiyə ehtiyacı olduğu bir zamanda yarandı "Sev" romanı. Payızın çiskinli, boz havasına da istilik qatdı, qəlblərə işıq çilədi.

Yazıçı-publisist, Əməkdar urnalist Natiq Məmmədlinin "Sev" romanının təqdimatında əsər haqqında səslənən fikirlər də insanlar arasında sevgiyə, mərhəmətə, xeyirxahlığa çağırışa çevrildi.

### SEVƏNLƏR VƏ SEVMƏYƏNLƏRİN DÜNYASI

Təqdimatın aparıcısı Fərid Hüseyn kitab haqqında məlumat verərək bildirdi ki, əsər 21-ci əsr hadisələrindən bəhs edir və üç ayrı-ayrı coğrafiyanı əhatə edir: "Romanı oxuduqca əsərin qəhrəmanları ilə müxtəlif coğrafiyalara və zamanlara səyahət edirsən. Roman müasir dünyanın əhvalını və düşüncəsinin çalarlarını nümayiş etdirir. Əsərin maraqlı xüsusiyyətlərindən biri də odur ki, müəllif əsrləri romanda birləşdirməklə dünyanı ayrı-ayrı dinlərə, düşüncələrə bölmür, sevənlərə və sevməyənlərə bölür. Süjetdəki konflikt də o nöqtədə həll olur: dünya həqiqətən sevənlərdən və sevməyənlərdən ibarətdir. Kitabı oxuduqca həm də onun yazılma prosesini görürsən. Bu roman həm mövzunun, həm də nəzəriyyənin izinə düşən insanlar üçün son dərəcə maraqlı olacaq".

### GƏNCLƏR ÜÇÜN CƏLBEDİCİ

Mətbuat Şurasının sədri Rəşad Məcid müəllifin bir neçə ay öncə təqdimatı keçirilən "150 ilin söhbəti" kitabını xatırladı: "Aprel ayında cənab Prezident Milli Mətbuatın 150 illiyi ilə bağlı Sərəncam imzaladı. Bu münasibətlə çoxlu tədbirlər keçirildi, kitab təqdimatları oldu. Bunların içərisində ən sanballılarından biri Natiq Məmmədlinin "150 ilin söhbəti" adlı kitabı idi".

Təqdimatı keçirilən "Sev" romanından danışan R.Məcid qeyd etdi ki, əsər mövzu xüsusən gənclər üçün cəlbedicidir: "Sev" bir neçə qatlı romandır. Süjetdə müxtəlif dini konfensiyaların bir-birini sevən iki nümayəndəsinin öz ölkələrindəki qadağalara görə ən rahat məkan kimi Azərbaycanı seçməsindən bəhs olunur. Müəllif eyni zamanda, Azərbaycan ədəbiyyatının, folklorunun bilicisi kimi Sarı Aşıq dastanına paralellər aparır. Sarı Aşığın hamımızın dillər əzbəri olan gəraylılarını, insan sevgisini, hiss və duyğularını əhəmiyyətli dərəcədə göstərir".

### DİL VƏ ÜSLUB MİSSİYASI

Professor Qulu Məhərrəmli dedi ki, ədəbiyyata jurnalistikadan, publisistikadan gələnlər tam hazır olur, cilalanmış ruhu, həm də mövzu qalereyası ilə seçilirlər: "Natiq Məmmədlinin bir çox hekayələrini oxumuşam. Nəqletmə, xarakteri göstərmək, konflikti ifadə etmək, obrazlara emosional gücü vermək baxımından müəllifin çox böyük imkanları var". Q.Məhərrəmli yazıçının dil və üslubuna da toxundu: "Yazıçı üçün dili yaratmaq bir missiyadır. Bizim çox görkəmli yazıçılarımız həm də dilləri ilə tanınıblar. Azərbaycan orfoqrafiya lüğətində yer alan sözlərin əksəriyyəti demək olar ki, bədii ədəbiyyatdan qaynaqlanır. Yazıçın bir missiyası da insanların könlünü açmaq və oxşamaqdır. Natiq Məmmədlinin yaradıcılığında bu məqamlar da çox güclüdür".

## Ədəbiyyatın kodları

Millət vəkili Elçin Mirzəbəyli bildirdi ki, əslində bu gün cəmiyyət olaraq sevgiyə çox böyük ehtiyacımız var: "İnsana, vətənə olan sevgiyə ehtiyacımız var. Pıçıltı ilə, çığırmadan, hay-küy salmadan, kitabın özü kimi... Natiq Məmmədlinin digər əsərlərində də heç bir pafos yoxdur. Müəllifin insanlara, dostlarına münasibəti necədirsə, əsərlərində bu əks olunur". E.Mirzəbəyli qeyd etdi ki, biz Cümhuriyyət dövründə baş verənləri "Əli və Nino"dan necə oxuyuruqsa, zaman gələcək, 21-ci əsrin əvvəlindəki proseslər də gələcək nəsillər üçün həmin ovqatı yaradacaq: "Ədəbiyyat emosional şəkildə tarixi münasibətlərin, reallıqların, insan sevgisinin gələcəyə ötürülməsi üçün sevgi kodlarından ibarətdir. "Sev" romanının da oxucular tərəfindən seviləcəyinə şübhə etmirəm".

## İnsanı sevgiyə səsləyən əsər



"Sev" adı müəllifin kim olduğunu göstərir" - deyə Əməkdar jurnalist Sahil İsgəndərli çıxışında bildirdi ki, sevgi çox geniş məfhumdur: "İnsan o hissi yaşamırsa, əsərini belə adlandıra bilməz. Bu, əslində sevgiyə, həyatı gözəlləşdirməyə çağırışdır. "Sev" başdan-başa insanı sevgiyə səsləyən əsərdir".

Tədbirdə çıxış edən APA Media Qrupun rəhbəri Vüsalə Mahirqızı "müəllifin tarixlə müasirlik arasında paralellər aparması əsəri gənclər üçün oxunaqlı edəcək" deyə roman haqqında fikirlərini bölüşdü. Əməkdar jurnalist Fuad Babayev Natiq Məmmədlini ən çox izlədiyi müəllif kimi dəyərləndirdi.

Kitabın müəllifi Natiq Məmmədli əsərin ad seçiminin sirrini açdı: "Romanın birinci hissəsində "Allah kitabı göndərəndə insanlara buyurub ki, sev" yazılıb. Bu, Allahın bir müjdəsidir. Kitaba ad seçərkən fikirləşdim ki, Allahın göndərdiyi kəlmə ən gözəlidir".

N.Məmmədli romanı pandemiya vaxtında - beş il əvvəl yazdığını dedi: "Fikirləşdim ki, bu romanı gənclər üçün yazmaq lazımdır. Amma elə yazmalıyam ki, 21-ci əsr insanının psixoloji portreti burada əksini tapsın. Ona görə əsəri "Sev" adlandırdım. Süjet xətti mürəkkəbdir. "Sev" süjetin üst tərəfidir, aşağı qatlarını isə oxuduqca oxuyanlar anlayar. Ona görə kitabın üstünə yazdım ki, "Ancaq sevənlər anlayar!"

N.Məmmədli bildirdi ki, bir ilə yaxın üzərində işlədiyi Qarabağ haqqında romanı da artıq başa çatdırıb və təqdimatını gözləyir: "Sevmək lazımdır ki, Qarabağın da qədrini bilək. Sevmək lazımdır ki, noyabrın soyuğunda əliyalın qayalara dırmaşan insanların şücaətini başa düşə bilək. İndiyə qədər bu psixoloji məqamı heç kəs aça bilməyib. Heç kəs deyə bilməz ki, o gənclər kitab, şeir oxuyaraq gedib Şuşanı alıblar. O genetik yaddaşdır".

“TAMAŞA BİRİNCİ NÖVBƏDƏ TAMAŞAÇIYA, İKİNCİ NÖVBƏDƏ TEATRA FAYDA VERMƏLİDİR”

# “HEÇ VAXT ATAMIN KÖLGƏSİNDƏ GİZLƏNMƏDİM”

**Ayla Osmanova:** “Həyatı, mərdliyi, sözü deyib arxasında durmağı, azadlığı atamdan öyrənmişəm. O, mənə evdə yaxşı ata, teatrda yaxşı rejissor olub. Eyni teatrda 10 il işləsək də, heç vaxt “bu, mənim atamdır” deməmişəm”.






**XANIM AYDIN**

Teatr elə bir sənətdir ki, bütün zamanların fövqündə dayanır. Dövrlər, maraqlar dəyişsə də, teatr aktuallığını itirmir. Onu maraqlı saxlayan isə əsərlərə quruluş verən rejissorlardır. Müsahibimiz Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrının rejissoru Ayla Osmanovadır.

## “ATAMA DEDİM Kİ, “MÜƏLLİM OLA BİLMƏYƏCƏYƏM”

● **Atanız - Bəhram Osmanov rejissor, ananız universitetdə aktyorluq və rejissorluq üzrə pedaqoqdur. Yəni valideynlərinizdən biri bu sənətin praktikada, biri nəzəriyyədə fədaisidir. Bəs sizə kim dəstək oldu? Nə sizi məhz rejissor olmağa sövq etdi?**

● Mən azad ruhlu, azad fikirli mühitdə böyümüşəm. Uşaqlıqdan bu sənətin içindəyəm - həm anamla, həm atamla teatra, universitetə gedirdim. Bülbül adına Musiqi Məktəbində fortepiano ixtisası üzrə oxuyurdum. Atam “Taleyin qisməti” serialını çəkirdi, onda 3-cü sinifdə oxuyurdum. Məni də çəkdi. Anamı Məleykə Əsədova, atamı Ötkəm İskəndərov oynayırdı. Serialda çox məşhur aktyorlar vardı. Həyatda uşaqlar deyirdi ki, “Ayla, səni televizorda gördük”, amma mənə adi gəlirdi. Amma elə o vaxtdan marağım yarandı. Amma atam bu sənətə gəlməyimə razı deyildi. Evdə tərbiyə belə idi: “Bacarırsansa, özün et”. Mən israrla rejissor olmaq istəyirdim. Atamı da anam birtəhər razı saldı. Amma bəlkə də atam məni bu sənətə buraxmaqla düşündü ki, özümü sınayacağam, alınmayacaq, sınıb gedəcəyəm. Anam isə hər zaman yanımda oldu, “Get, mən sənin yanındayam”, - dedi.

● **Teatra gəlişiniz necə baş verdi?**

● Sonuncu kursda oxuyurdum. Teatrın direktoru Mübariz müəllim mənə dedi ki, “bir əsər gətir, işləyək”. Atam isə dedi: “O, magistraturaya hazırlaşır, müəllim olacaq”. Mən magistraturaya qəbul oldum, amma Mübariz müəllim yenə dedi ki, bizə ikinci rejissor lazımdır. Londondan bir rejissor gəlmişdi, trilogiya qururdular: “Konnemarada bir kəllə”, “Yalnız qəlb” və “Gözəllik kraliçası”. Mən “Kraliçanı” qurdum, işi üç aya bitirdik. Sonra mənə dedilər ki, Prezidentin sərəncamı ilə narkomaniya əleyhinə “Ağ ölüm” tamaşası hazırlanacaq və bu tamaşanı qurmalıyam. 21 yaşım var idi. Bölgü oldu, tamaşada Xalq artisti Nübar Novruzova oynayacaqdı. Tamaşamız uğurlu alındı və bu günə qədər repertuardadır. O tamaşa mənim üçün həm sınaq, həm də dönüş nöqtəsi oldu. Onda anladım ki, bu sənəti sevirəm. Atama dedim ki, “müəllim ola bilməyəcəyəm”.

## “HEÇ VAXT “BU, MƏNİM ATAMDIR” DEMƏMİŞƏM”

● **Atanızdan nə öyrənmisiniz?**

● Həyatı, mərdliyi, sözü deyib arxasında durmağı, azadlığı ondan öyrənmişəm. O, mənə evdə yaxşı ata, teatrda yaxşı rejissor olub. Eyni teatrda 10 il işləsək də, heç vaxt “bu, mənim atamdır” deməmişəm. Həmişə özüm olmağa çalışmışam. Atamın kölgəsində qalmaq istəməmişəm, öz yolumu cızmaq istəmişəm. O, mənə heç vaxt güzəşt etməyib, başqalarına yol açıb, amma mənə yox. O vaxt inciyirdim, amma indi başa düşürəm ki, düz edib.

● **Sizcə, atanızın ən uğurlu tamaşası hansıdır?**

● Lars Nurenin “Müharibə” əsəri əsasında “Mən gəldim, qızlar” tamaşası mənim üçün çox gözəldir. Bir də “Sehrbazlar dərəsi”ni çox sevirəm. Adətən tamaşanı ikinci dəfə izləmirəm, amma bu tamaşa sanki məni səsləyir. Hər dəfə baxanda başqa bir gözəllik tapıram. Hesab edirəm ki, bu tamaşa Bəhram Osmanovun ən yaxşı tamaşası, sanki həm də ikinci baharıdır.

● **Tamaşa quranda atanızla məsləhətləşirsiniz?**

● Xeyr. Sadəcə deyirəm ki, filan tamaşanı qurmaq istəyirəm, o da cavab verir: “Get, qur”. Ümumiyyətlə, biz bu haqda müzakirə aparmırıq.

## “MƏNİM ÜÇÜN O, ƏN BÖYÜK MÜKAFAT İDİ”

● **Hazır tamaşalarınıza baxanda irad tutursunuz?**

● Yox. Xoşuna gələndə sadəcə “bunu necə qurmusan?!” deyir. Məni heç vaxt tərifləmir, amma başqalarının yanında haqqımda yaxşı sözlər deyir. Pərvin Nurəliyevanın “Mən öləndə ağlama” əsəri əsasında quruduğum tamaşaya baxandan sonra bir çox yazıçılar və rejissorlarla görüşmüşdü. Oradan mənə zəng edib dedi: “Ayla, çox sağ ol! Sənin sayəndə bu gün mənə çox gözəl sözlər deyirlər!” Bu, mənim üçün ən böyük mükafat idi.

● **Hansı rejissorların işini bəyənirsiniz?**

● Bizdə həm köhnə, həm də yeni nəsildən çox az rejissor var. Nicat Kazımovun “Şah Abbas Namə” tamaşası məni çox təsirləndirdi. Pantomim Teatrından Ceyhun Dadaşovun işlərini də bəyənirəm.

● **Qadın və kişi rejissorlar arasında fərq varmı?**

● Gender ayrı-seçkiliyi bizdə köklərdən gəlir. “Qadından rəhbər, idarəçi olmaz”, deyirlər. Amma hər şeyi qadın idarə etmirmi? Hər bir uğurlu kişinin arxasında da qadın faktoru dayanmırmı? Qadınlar emosional olur, bəlkə də, ona görə belə deyirlər. Amma Cənnət Səlimovanın adı bu suala ən gözəl cavabdır!

## “DRAMATİK TAMAŞALARDAN HƏLƏ Kİ, ZÖVQ ALA BİLMİRƏM”

● **Tamaşaçı nə istəyir, sizcə?**

● Tamaşaçı səmimiyyət istəyir. Həmişə aktyorlara deyirəm: “Ürəyinizi söndürüb səhnəyə çıxmayın, ürəklə oynayın!”

● **Daha çox uşaq tamaşaları qurursunuz. Böyüklər üçün niyə müraciət etmirsiniz?**

● Dramatik tamaşalardan hələ ki, zövq ala bilmirəm. Fikirləşirəm ki, bunu daha böyük yaşlarımda da edə bilərəm.

● **“Büllur başmaq” tamaşasında nə fərqli olacaq?**

● “Küllücə” obrazını xarakter kimi təqdim etmək istəyirəm. Əzilmiş, sınmış qız yox, güclü və öz sözünü deyən bir obraz olacaq.

● **Bu gün teatrlarda nə çatmır, sizcə?**

● Tamaşa xətrinə tamaşa qoymaq olmaz. Yeni baxış, müasir yanaşma lazımdır. Tamaşa birinci növbədə tamaşaçıya, ikinci növbədə teatra fayda verməlidir.

● **Yaradıcılıqla ailə həyatını uzlaşdırmaq çətin deyil ki?**

● Yoldaşım da teatrda səs rejissorudur. Əgər arxanda anlayışlı bir həyat yoldaşı və sənə dayaq duran ailə varsa, heç nə çətin deyil. Mən böyük bir ailəyə gəlin getmişəm, onlar mənə çox dəstək olurlar. Əgər bu gün işimin qulpundan yapışırsamsa, bilirəm ki, uşaqlarım etibarlı əllərdədir. Ailə mənim üçün hər şeydir.



**Fotolar:** Tapdıq Abdullayev / Global Photostock

## 50 MİN MANATLIQ MÜKAFAT ƏTRAFINDA MÜZAKİRƏLƏR İNTENSİVLƏŞİR

# YENİ NƏFƏS, YOXSA YENİ QALMAQAL?

**"Azərbaycan Kitab Mükafatı"nın təsis ediləcəyi barədə yayılan xəbər ədəbiyyat aləmində müzakirələrə səbəb olub. Əksəriyyət hesab edir ki, münsiflər doğru seçilsə, qiymətləndirmə obyektiv aparılsa, nəticə də yaxşı olacaq.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Mədəniyyət Nazirliyi tərəfindən "Azərbaycan Kitab Mükafatı"nın təsis ediləcəyi xəbəri ədəbiyyat aləmində canlanma yaradıb. "Mükafat kimə veriləcək?", "Laureat kim olacaq?", "Müsabiqə ədalətli keçiriləcəkmi?" və s. kimi suallar ətrafında müzakirələr sosial platformaların gündəmindən düşmür.

Tanınmış yazıçılar, ədəbiyyatşünas alimlər "müsabiqəni necə obyektiv keçirmək olar" fikri ətrafında mövqelərini bölüşürlər:

### PROSESİN ƏTRAFINDA YARANAN AJİOTAJ

Yazıçı-dramaturq Elçin Hüseynbəyli müsabiqənin ədalətli təşkili ilə bağlı hər hansı reseptinin olmadığını bildirsə də, ümumilikdə prosesi alqışlayır: "Bu proses geniş müzakirələrə yol açacaq və ədəbiyyatımızın inkişafına müsbət təsir edəcək. "Əsərlərin dəyərləndirilməsinə böyük ehtiyac var"- deyə biz dəfələrlə bu barədə müzakirələr aparmışıq. Rusiya, Türkiyə kimi ölkələrdə bu kimi çoxsaylı mükafatlar var. Bizim ölkəmizdə də təsis olunması müsbət haldır". E.Hüseynbəyli çox nüfuzlu, titullu yazıçıların bu müsabiqəyə müraciət edəcəyini düşünmür: "Çünki onlar kənarda qala biləcəklərindən ehtiyat edərlər". Yazıçı belə müsabiqənin keçirilməsi ilə bağlı fərqli təcrübələrin olduğunu bildirir: "Bəlkə belə bir variant ola bilər: heç təqdimat olmasın. Məsələn, Estoniya variantı kimi. Onlar kitabxanalarda, nəşriyyatlarda sorğular keçirirdilər. Sonra nəticələri ümumiləşdirib, əsəri seçir və mükafatlandırır, sonra müəllifin əsərini həm daxildə, həm də xaricdə çap edirdilər".

Yazıçı mükafat ətrafında indidən yaranan söz-söhbətlərə də münasibət bildirir: "Onsuz da istənilən seçim nə qədər obyektiv etsən də, subyektiv görünür. Prosesin ətrafında yaranan ajiotajın özü ədəbiyyata müsbət təsir edəcək. Ədəbiyyata gəlmək istəyən - həm yazıçı, həm oxucu prosesi maraqla izləyəcək. Bu da ədəbiyyatın inkişafına bir köməkdir. Nəzərə almaq lazımdır ki, bizim cəmiyyət müəyyən mənada darıxır, dedi-qoduya, intriqaya maraqlıdır. İnsanlar üçün prosesi izləmək maraqlı olacaq".

### "MÜSABİQƏ DİLETANT SƏVİYYƏDƏ OLMAMALIDIR"

E.Hüseynbəyli qalibi seçəcək münsiflər heyətinə xaricdən ekspertlərin dəvət olunmasının tərəfdarı deyil: "Biz bu təcrübələrdən çox istifadə etmişik. Ancaq görürük ki, onlar bizim mentalitet, düşüncə tərzimizə bələd deyillər. Hesab edirəm ki, öz ölkəmizdə yetərincə savadlı, obyektiv ədəbiyyatşünaslar, tənqidçilər və yazıçılar var. Dövlət səviyyəsində keçirilən müsabiqə diletant səviyyədə olmamalıdır. Mədəniyyət Nazirliyinin müsabiqəyə peşəkar münsiflər cəlb etmək imkanı var. Nazirlikdə ədəbiyyatı bilən adamlar var, amma Yazıçılar Birliyini, Ədəbiyyat İnstitutunu da kənarda qoymaq olmaz. Həmçinin münsiflərin qonorarı olmalıdır. Bu olmasa, heç bir münsif oturub 50 roman oxuyan deyil".




### "Qorxuram ki, bu mükafat da..."

Filologiya elmləri doktoru, professor Rüstəm Kamalın fikrincə, seçim prosesi mərhələli olmalıdır: "Mükafatın ciddiliyi komissiya üzvlərinin məsuliyyətli və nüfuzlu olmasından da asılıdır. İstənilən mükafat ədəbi prosesin inkişafını şərtləndirən amildir. İndiki zamanda bu mükafat ədəbiyyatı ayaqda saxlayan məqamlardan biri ola bilər. Yəni sistemli qonorarın olmadığı bir vaxtda bu, çox vacib şərtdir. Amma qorxuram ki, bu mükafat da "Qızıl kəlmə" mükafatı kimi söz-söhbətli olsun. O mükafatın da arxasında pul dururdu, təşkilatçı da Mədəniyyət Nazirliyi idi. Bu baxımdan, bir qədər ümidsizəm. Təbii ki, yenə söz-söhbət olacaq. Bizdə hələ mükafatlandırma əxlaqı və fəlsəfəsi oturuşmayıb".

Ədəbiyyatşünas alim mükafatın adını da uyğun hesab etmir: "Mükafatın adından ədəbiyyat qoxusu gəlmir. Ola bilsin ki, ingilislərin "booker" sözünün "kalka"sıdır. Ruslarda isə "Böyük kitab" sözü var. Göz önünə kitabın məzmun miqyası yox, həcmi gəlir. Mükafata daha uğurlu, cəlbedici ad seçmək olar. Çünki mükafat üçün ayrılan məbləğ böyükdür, arxasında da dövlət durur". Professorun fikrincə, seçim üçün meyarlar aydın və ciddi olmalıdır: "Münsiflər heyətində müxtəlif yaşda və müxtəlif təbəqələrin üzvləri - alimlər, ədəbiyyatşünaslar, tənqidçilər, yazıçı və şairlər olmalıdır".

R.Kamalın fikrincə, mükafatlandırma ətrafında söz-söhbətin, qalmaqalın yaranmaması üçün bir neçə belə nüfuzlu mükafat təsis edilməlidir: "Fransada, Rusiyada bir neçə mükafat var, hamısı da nüfuzludur. İddia edənlər "Buna düşmədimsə, o birinə düşüm" deyə fikirləşirlər. Yoxsa mükafatın bir dənə olması yazıçı davranışının da balansını pozacaq. Hesab edək ki, bu "Qran Pri"dir. Amma buna qədər də mükafatlar olmalıdır. Türkiyədə ayrı-ayrı janrlar üzrə və qəzetlərin də mükafatları var. Bizdə isə bunlar yoxdur. Mənzərəyə nəzər salın: hələ ortada mükafat yoxdur, amma nə qədər söz-söhbət var. Ona görə alternativlər də olmalıdır. Bu, ədalətlilik mənzərəsi də yarada bilər. Mükafatın nüfuzu ədəbiyyatın, yazılan əsərlərin nüfuzu olacaq. Yəni bundan hamı – millət də, dövlət də qazanacaq".

### "Biri cavan, biri yaşlı şairin adını çəkər"

Tənqidçi Vaqif Yusiflinin fikrincə, seçim üçün müxtəlif janrlar üzrə sistem qurulsa, yaxşı nəticə olar: "O zaman hər kəs müsabiqəyə əsər verə biləcək. Onda yaxşı ilə pisi ayırmaq olar". Tənqidçi prosesdə münsif seçiminin əsas şərt olduğunu bildirir: "Münsiflər heyətində obyektiv olmaq çox çətindir. Bir də gördün mükafat bədii keyfiyyəti yüksək olmayan şeir kitabına verildi. Çünki "Yaxşı şeir nədir?" sualına hər münsifin cavabı müxtəlif ola bilər. Biri cavan, biri yaşlı şairin adını çəkər. Fikrimcə, bu baxımdan, münsif seçimi çox həssas olmalıdır".



Rüstəm Kamal

Elçin Hüseynbəyli

Foto: Tapdıq Abdullayev/Global Photostock



Vaqif Yusifli

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi İDMAN
13 DEKABR ŞƏNBƏ 2025

# BU DƏFƏ ALINMADI

**"Qarabağ" "Ayaks"la qarşılaşmada azarkeşləri məyus etdi. Ustalıq səviyyəsi bu məğlubiyyətin əsas səbəblərindən biri oldu. Etiraf etmək lazımdır ki, "Qarabağ"ın oyunçuları güc baxımından bu mövsüm qarşılaşdığı rəqiblərdən geri qalırlar.**



Tarixində ikinci dəfə Çempionlar Liqasının əsas mərhələsində çıxış edən "Qarabağ" ilk dörd oyundan sonra azarkeşlərə böyük ümid vermişdi. Lakin son iki qarşılaşmada əldə olunan nəticələr komandanın işini xeyli çətinləşdirdi. İndi pley-offa düşmək üçün komandanın qarşısında həlli daha çətin tapşırıqlar dayanır.

### "AYAKS"LA DRAMATİK OYUN

Niderland nəhəngi Bakıya xalsız, amma böyük ümidlərlə gəlmişdi. Uğursuz nəticələr səbəbilə baş məşqçisini istefaya göndərən və bir neçə əsas oyunçusundan məhrum olan "Ayaks" məhz Azərbaycan paytaxtında uğursuzluq seriyasına son qoymaq istəyirdi. Bu qarşılaşmaya qədər yeddi xal toplamış "Qarabağ" isə autsayderə qarşı qələbə qazanmaqla pley-off şanslarını daha da artırmağı hədəfləyirdi.

Oyun komandamızın istədiyi kimi başladı və ilk hissənin sonlarınadək bu üstünlük davam etdi. "Atlılar" erkən qolla hesabı açmağı da bacardılar. 10-cu dəqiqədə Kamillo Duran Elvin Cəfərquliyevin ötürməsini zərif toxunuşla tamamlayaraq azarkeşləri sevindirdi. Hissənin sonuna doğru Kasper Dolberq hesabı bərabərləşdirsə də, fasilədən dərhal sonra "Qarabağ" yenidən önə keçdi. Elvin Cəfərquliyevin başladığı hücumu Mateus Silva qolla yekunlaşdırdı.

Bundan sonrakı müddətdə oyuna əsasən "Qarabağ" nəzarət etsə də, son 20 dəqiqəlik hissə komanda üçün sanki kabusa çevrildi. Əvəzetmələrlə oyunun tempini artıran "Ayaks" ardıcıl təhlükəli hücumlar təşkil etməyə başladı. Nəticədə 79-cu dəqiqədə hesabı bərabərləşdirdilər. Cəmi dörd dəqiqə sonra amsterdamlılar ilk dəfə öndə oldular və 90-cı dəqiqədə vurulan qolla matçın taleyini həll etdilər – 2:4.

### MƏĞLUBİYYƏTİN SƏBƏBLƏRİ

"Qarabağ" oyunu sonadək eyni üslubda davam etdirdi. Bu, ilk 70 dəqiqədə işləsə də, matçın sonlarında lazımi müdaxilələrin gecikməsi və ya səhv qərarlar məğlubiyyətə gətirib çıxardı. Qurban Qurbanovun əvəzetmələri də müzakirə mövzusuna çevrildi. Xüsusilə Kamillo Duran və Leandro Andradenin meydanı tərk etməsi, əvəzində Nəriman Axundzadə ilə Aleksey Kaşşukun daxil olması hücum xəttinin aktivliyini xeyli azaltdı.

Fasiləsiz yağışın meydanı ağırlaşdırması və futbolçuların fiziki cəhətdən "çatdırmaması" komandanın oyun intizamını pozdu. Müdafiədə yaranan boşluqlar və pressinqin zəifləməsi məhz fiziki yorğunluğun nəticəsi idi. "Ayaks" isə əksinə, əvəzetmələrlə tempi artırdı və bərabərlik qolundan əvvəl də bir neçə dəfə təhlükəli epizodlar yaratmışdı.

Rəqib təzyiqi artırdıqca "Qarabağ"ın daha çox müdafiəyə qapanması və oyunu sadələşdirməsi lazım idi, lakin komanda əksinə, irəli çıxmağa çalışdı və daha mürəkkəb kombinasiyalar qurmağa cəhd etdi ki, bu da oyunu Azərbaycan çempionu üçün daha da çətinləşdirdi. Ümumilikdə, ustalıq səviyyəsi bu məğlubiyyətin əsas səbəblərindən biri oldu. Etiraf etmək lazımdır ki, "Qarabağ"ın oyunçuları güc baxımından bu mövsüm qarşılaşdığı rəqiblərdən geri qalırlar. Bəzi oyunçuların müəyyən matçlarda parlaması ümumi səviyyənin dünya standartlarında olduğunu göstərmir. Digər qarşılaşmalarda həmin futbolçuların fərdi səhvləri məğlubiyyətlə nəticələnə bilir. Zəif dönəmlər yaşasa belə, "Ayaks" kimi futbolçu konveyeri olan klublar məhz akademiyalarının gücü sayəsində bu cür situasiyalardan çıxış yolu tapa bilirlər.

## ŞANSLAR XEYLİ AZALIB, AMMA HƏLƏ TÜKƏNMƏYİB



Qurban Qurbanov

"Ayaks"la qarşılaşmadan əvvəl "Qarabağ" turnir cədvəlinin 19-cu pilləsində idi. Rəqibin uğursuz çıxışı ümidləri artırmışdı və qazanılacaq qələbə komandanı pley-off zonasında möhkəmləndirəcəkdi. İndi vəziyyət daha mürəkkəbdir – komanda hazırda 22-ci pillədə qərarlaşıb. "Benfika" və "Kopenhagen"ə qalib gəlmiş, "Çelsi" ilə bərabərə qalmış, "Ayaks", "Atletik" (Bilbao) və "Napoli"yə uduzmuş "Qarabağ"ın aktivində yeddi xal var. "Kopenhagen" və "Napoli" də eyni xala malikdir.

Komandanın qarşısında hələ iki oyun var. 2026-cı ildə baş tutacaq matçlarda Qurban Qurbanovun komandası əvvəlcə "Ayntraxt", daha sonra "Liverpul"la üz-üzə gələcək. Pley-offa vəsiqə verən "24-lük"də yer almaq çətinləşsə də, şans tamamilə tükənməyib. Yanvarda Bakıda keçiriləcək "Ayntraxt" oyunu əsl ölüm-qalım matçı olacaq. Həmin görüşdə qələbə komandanın şanslarını xeyli artıra bilər.

"Liverpul"a qarşı səfərdə xal qazanmaq çətin görünür, amma Bakıda "Ayntraxt"ı məğlub etmək real hədəfdir. "Ayaks" qarşısında alınan ağır məğlubiyyəti unutmaq, qış fasiləsindən düzgün istifadə edib daha yaxşı hazırlaşmaq mümkündür. "Qarabağ"ın indiyədək daha çətin tapşırıqları uğurla yerinə yetirməsi isə azarkeşlərə nikbin olmaq üçün kifayət qədər əsas verir.



Fred Qrim

Foto: Əjdər İbrahimov
Global Photostock